

3

## Dünya mediası "Xarıbülbül" Beynəlxalq Folklor Festivalından yazır

# Qafqazın incisi olan Şuşa müasir dünyamızın ahəngində




# Səs

№ 84 (6525) **14 may** 2022-ci il. **Qiyməti 60 qəpik**


*Azərbaycanın dilbər guşəsi Qarabağımız müasir dünyamızda yeni dövrünü yaşayır. 30 ilə yaxın işğal altında olan torpaqlarımız azad olunandan sonra Qarabağımız müasir dünyanın ahəngində qurulur, ona yeni həyat verilir.*



# Ermənistandakı aksiyalar tükənir




9

3



## Prezident Administrasiyasında növbəti görüş keçirilib

Mayın 13-də Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ilə Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev arasında görüş keçirilib...

## "Kağız idxalının ƏDV-dən azad edilməsi çap mediasının səmərəli fəaliyyətinə əhəmiyyətli təsir göstərəcək"

6



***Azərbaycan Respublikasının Baş nazirinin imzaladığı müvafiq qərarla ölkəmizdə kütləvi informasiya məhsullarının, kitabların və dərslik komponentlərinin, həmçinin həmin məhsulların istehsalı və nəşri ilə bağlı kağızın idxalı və satışı əlavə dəyər vergisindən (ƏDV) azad edilib...***



## Rossana Boldi: "Azərbaycanla strateji tərəfdaşlığın gücləndirilməsində maraqlıyıq"

*İtaliya Azərbaycanla strateji tərəfdaşlığın gücləndirilməsində maraqlıdır. Bu sözləri AZƏRTAC-a müsahibəsində İtaliya Deputatlar Palatasının üzvü, İtaliya-Azərbaycan Dostluq Assosiasiyasının sədri Rossana Boldi deyib...*

## Kabab tüstüsündə boğulan şəhər

11



*Havanın çirklənməsi əhalinin artması, şəhərlərin böyüməsi və sənayenin inkişafı ilə artan sürətlə davam edir. Nəqliyyat vasitələrinin artması şəhər mərkəzlərində havanın keyfiyyətinin pisləşməsinə səbəb olur...*

15

## "Yerevanın səs-küyü bütün Qarabağın Azərbaycana qayıdacağı faktını dəyişməyəcək"



*Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti Aleksey Naumov "Moskva-Bakı" portalına müsahibəsində Qarabağın statusuna görə İrəvanın informasiya səs-küyünə niyə ehtiyac duyduğu haqda fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik...*



## Pomidor - alma kimi...

*Son illər ölkəmizdə fəaliyyət göstərən bəzi istixanalarda keyfiyyətli pomidor sortları yetişdirilir. Bu sortların toxumlarını haradan gətirirlər, haradn gətirirlər, nə cür əldə edirlər, deyə bilmərəm...*

7



## "Nazirlər Kabinetinin Qərarı mətbuatın iqtisadi müstəqilliyini daha da möhkəmləndirəcək"

11

***"Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin son 18 ildən artıq dövrdə azad mətbuatın inkişafı istiqamətində atdığı addımların...***



## Stresdən çıxmağın yolları açıqlandı: çarə nədir?

16

***Son zamanlar stres problemi və onunla mübarizə yolları bütün yaş qrupları arasında aktualdır...***

# Xarıbülbül dünyanı Şuşanın seyrinə çağırır

## İLHAM ƏLİYEV: "Əziz Şuşa, sənə azadlıq yaraşır"

***Lider o şəxsiyyətdir ki, ona etimad göstərmiş xalqın maraqlarını bütün imkanları ilə müdafiə edir, reallaşdırır, cəmiyyətin enerjisinin səfərbər edilməsilə insanların taleyində əhəmiyyətli faktora çevrilir. Artıq 19 ildir ki, Azərbaycan xalqının etimadı əsasında ölkəyə rəhbərlik edən Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu şaxələndirərək, uğurla reallaşdırması nəticəsində perspektiv baxımdan əhəmiyyətli nəticələrin əldə olunmasına səbəbkar olub.***








Artıq bir il yarımdan çox zaman müddətində Azərbaycan xalqı, bütün türk dünyası qürurlu günlərini yaşayır. Bu qüruru, bu sevinci bizə bəxş edən 30 il işğalçı Ermənistanın təsiri altında olan Qarabağımızın qovuşmasına 44 gün ərzində Ali Baş Komandanımız, Azərbaycan Prezidenti İlham Əliyev "Dəmir yumruq" siyasəti ilə Müzəffər Ordumuzun rəşadətli əsgər və zabitlərimizin qanı, canı bahasına Azərbaycanın hərbi-siyasi qələbəsinin, Ermənistanın kapitulyasiyasının təsdiqi olan 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatını imzalandı.

### "QARABAĞ AZƏRBAYCANDIR!" REALLIĞI 44 GÜNDƏ - MÜMKÜNSÜZÜ MÜMKÜN ETDİ

30 ilə yaxın dilimizdən düşməyən gün o gün olsuna, ürəyimizdə qübara çevrilən, xiffətini çəkdiyimiz ata-baba torpaqlarına böyük qayıdışın arzusu, xəyalımız 44 gün ərzində gerçəkləşdi. Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə NİDASI qoyuldu! Azərbaycan torpaqları qarış-qarış, kənd-kənd işğaldan azad edildi. 44 gün ərzində 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad olundu, Silahlı Qüvvələrimiz Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavəndin böyük hissəsini, Laçın rayonunun kəndlərini işğaldan azad etdi. Uzun illərdən sonra doğma torpaqlarımızda yenidən üçrəngli şanlı bayrağımız ucaldıldı. 8 noyabr isə Azərbaycan tarixinə Qələbə Günü kimi düşdü. Qarabağın tacı, ölkəmizin ən dilbər guşələrindən biri, muğamımızın beşiyi Şuşa mənfur düşmən tapdağından qurtuldu. Ali Baş Komandanımız İlham Əliyev 10 noyabr gecəsi doğma xalqını böyük zəfər xəbəri ilə müjdələdi: "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır".Və bu qələbədən dərhal sonra, 2020-ci il noyabr ayının 16-da Füzuli və Cəbrayıl rayonlarına, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərinə səfərləri, bu səfər çərçivəsində ölkə Prezidentinin Füzulidən Şuşa şəhərinə yol çəkilişi ilə bağlı göstəriş verməsi xalqımızda böyük ruh yüksəkliyi, qürur hissi yaratdı. Tarixi torpaqlarımıza edilən ilk səfər Böyük Qayıdışın başlanmasından xəbər verdi. Diqqət yetirsək görərik ki, ötən il dövlət başçısının bölgələrə 47 dəfə səfəri olmuşdur ki, bunların 32-si işğaldan azad edilmiş ərazilərə idi. 32 səfərin 7-si isə Qarabağın tacı, Azərbaycanın döyünən ürəyi Şuşa şəhərinə idi. Mədəniyyət paytaxtımız Şuşa iki ilə yaxındır ki, çal-çağırlı, toy-büsatlıdır. Hər gün qonaqlarını qarşılayan musiqi beşiyimiz 28 ildən sonra "Xarıbülbül" musiqi festivalı, Vaqif Poeziya Günləri ənənəsinin bərpəsindan sevinclidir. Artıq ikinci dəfədir ki, "Xarıbülbül" musiqi festivalı keçirilir: "Şuşa tarixi sahibinə qovuşduğu gündən neçə-neçə beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi, iki dost Azərbaycan və Türkiyənin müəttəfiqliyini tədiqləyən sənədin imzalanmasına şahidlik edib. Şuşa 28 ildən sonra dünyanın müxtəlif ölkələrində yaşayan, hazırda tarixə qovuşan Dağlıq Qarabağ münaqişəsinin həllində əsas amillərdən olan diplomatik mübarizədə Azərbaycanın Qələbəsinə öz töhfələrini verməyə səy göstərən və 44 günlük Vətən müharibəsində tarixi Zəfərimizdə payı olan dünya azərbaycanlılarını bir araya gətirib dünyaya səs salan Zəfər Qurultayına ev sahibliyi etdi.

Cari ilin mayın 10-da Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Füzuli və Şuşa şəhərlərinə səfərləri öz rəmzi mənası ilə diqqətdədir. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin doğum günündə reallaşan bu səfər bir daha ata vəsiyyətinin yerinə yetirilməsindən yaranan sevincin, qürurun təqdimatı oldu. Ölkə Prezidenti Şuşadan müraciətində də bu məqamı xüsusi qeyd etmişdir: "Mayın 10-da mən mütləq burada olmalı idim. Ulu Öndərin xatirəsinə öz ehtiramımı və Azərbaycan xalqının ehtiramını buradan ifadə etməli, bir daha deməli idim ki, biz bu torpaaqlara, doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq. Qarabağ bizimdir və Qarabağ Azərbaycandır!" Və bu gün bütün Azərbaycan xalqı, bütün türk dünyası fəxr edir, sevinir ki, mümkünsüzü mümkün edən, tarixi Qələbəmizi reallaşdıran Prezidentimiz dövlətimizi daha firavan gələcəyə aparır, xalqımızın bütün istəklərini həyata keçirir. Bax budur, hər bir Azərbaycan vətəndaşının Prezidenti olmaq!

### "XARIBÜLBÜL" BU İL DƏ DÜNYANI ŞUŞANIN SEYRİNƏ ÇAĞIRIR

12-14 may tarixində Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu və Şuşa Şəhəri Dövlət Qoruğunun təşkilatçılığı ilə "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı dünyanı Şuşanın seyrinə çağırdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva festivalın açılışında iştirak ediblər. Mayın 14-də başa çatacaq sayca beşinci festivala xarici ölkələrdən müxtəlif folklor üslublarında çıxış edən musiqiçilər, rəqs kollektivləri, həmçinin Azərbaycanın müxtəlif regionlarından folklor kollektivləri qatılıblar. Festivalın açılış konserti Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının ifasında "Vətən süitası" ilə başladı. Hələ 2020-ci il noyabrın 8-də Prezident İlham Əliyev Şuşanın azad olunması münasibətilə xalqa müraciətində qeyd etmişdi ki, Qarabağın tacı olan bu şəhər tezliklə dirçəldiləcək və özünün əvvəlki şöhrətini qaytaracaqdır. Ötənilki festivalın açılış mərasimində isə dövlətimizin başçısı "Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" festivalı Şuşada hər il keçiriləcək", - demişdi. V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının keçirilməsi Prezidentimizin həmin fikirlərinin əyani təsdiqidir.1990-cı ildən beynəlxalq status alan "Xarıbülbül" festivalı qələbədən sonra 2021-ci il mayın 12-13-də Şuşanın Cıdır düzündə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən festivalın açılışında Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də iştirak ediblər.

### "XARIBÜLBÜL" FESTİVALI - ŞUŞADAN DÜNYAYA HUMANİZM MESAJI

Bəli, bu gün Şuşa bizim üçün yalnız yaşayış məskəni və ərazi anlamı daşımır. Şuşa, xüsusilə, Xarıbülbül milli-mənəvi simvol olaraq hər bir azərbaycanlı üçün yüksək dəyər və müqəddəslik etalonudur. Əgər Şuşa Qafqazın milli konservatoriyası, bütövlükdə türk dünyasının ortaq mədəniyyət mərkəzi kimi tanınırsa, Xarıbülbül isə 44 günlük Vətən savaşının şəhidlik və zəfər çələngidir.Ali Baş Komandan, Prezident İlham Əliyevin iştirakı ilə Şuşada V "Xarıbülbül" Beyəlxalq Folklor Festivalının keçirilməsi sıradan bir mədəniyyət hadisəsi deyil, bu, həm də Azərbaycanın bütün dünyaya musiqi dolu humanizm mesajıdır. Bu, həm də onu bildirir ki, bizim kimsənin torpağında gözümüz yoxdur, biz bütün xalqlara, onların adət- ənənələrinə, dəyərlərinə hörmətlə yanaşırıq. Və biz ümummilli liderin dərin dövlətçilik strategiyası, mükəmməl siyasi kursu ilə daha güclü və yenilməz Azərbaycanı qura bildik. Prezident İlham Əliyev mayın 10-da "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzini işə salandan sonra şəhərdəki inzibati binanın qarşısında müraciətində də ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü günündə bura, azad edilən Qarabağa mütləq gələcəyini və buna əməl etdiyini diqqətə çatdırdı: "Ulu öndərin xatirəsinə öz ehtiramımı və Azərbaycan xalqının ehtiramını buradan ifadə etməli, bir daha deməli idim ki, biz bu torpaqlara, doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq".

Bu yerdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vaxtilə müdrik uzaqgörənliklə söylədiyi "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik" sözlərinin və Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Şuşa şəhərinin azad edilməsi münasibətilə 2020-ci il noyabrın 8-də xalqımıza müraciətində dediyi "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!". Və bir daha bizə bu sevinci, bu xoşbəxtliyi yaşadan, bizi doğma Şuşamıza, xan Qarabağa qaytaran, təbiətin bu əsrarəngiz gözəlliyini özümüzə qaytaran Şəhidlərimizin ruhu qarşısında baş əyirik!

***RƏFİQƏ KAMALQIZI***

## Rəsmi sənədlər

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının rayon, şəhər, şəhərlərdə rayon İcra hakimiyyəti başçılarının aparatlarında sənədlərlə iş barədə Təlimat"ın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 347 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 540 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# Dünya mediası "Xarıbülbül" Beynəlxalq Folklor Festivalından yazır










***Misirin "Yeni dünya xəbərləri" portalında Şuşada keçirilən V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı haqqında xəbər yayımlanıb. AZƏRTAC-ın materialına istinadla yayımlanan xəbərdə qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva festivalın açılışında iştirak ediblər.***

Misir ictimaiyyətinin diqqətinə çatdırılıb ki, Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə elan edilən "Şuşa İli"ndə keçirilən V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Şuşa Şəhəri Dövlət Qoruğu tərəfindən təşkil olunub. Mayın 14-də başa çatacaq sayca beşinci festivala xarici ölkələrdən müxtəlif folklor üslublarında çıxış edən musiqiçilər, rəqs kollektivləri, həmçinin Azərbaycanın müxtəlif regionlarından folklor kollektivləri qatılıblar.

Xəbərdə vurğulanıb ki, Şuşa şəhərində ilk "Xarıbülbül" festivalı məşhur xanəndə, pedaqoq, Xalq artisti Seyid Şuşinskinin (1889-1965) 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildə keçirilib. Tədbir həmin ilin mayında - Şuşada xarıbülbülün çiçəklənmə dövründə təşkil olunub. İlk festivalda yerli ifaçılarla yanaşı, keçmiş ittifaq respublikalarından Qırğızıstan, Qazaxıstan, Rusiya (Başqırdıstan), Litva və Belarusdan da musiqi qrupları iştirak ediblər.

Moldovanın nüfuzlu xəbər portallarında da Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı və onun açılış mərasimi ilə bağlı məqalələr dərc olunub.

"NOİ", "TRİBUNA" xəbər portallarında AZƏRTAC-ın materialları əsasında dərc olunan məqalələrdə V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirak etdiyi qeyd olunur. Bildirilir ki, Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar "Şuşa İli"ndə keçirilən V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Şuşa Şəhəri Dövlət Qoruğu tərəfindən təşkil olunub. Mayın 14-də başa çatacaq sayca beşinci festivala xarici ölkələrdən müxtəlif folklor üslublarında çıxış edən musiqiçilər, rəqs kollektivləri, həmçinin Azərbaycanın müxtəlif regionlarından folklor kollektivləri qatılıblar.

Məqalələrdə vurğulanıb ki, hələ 2020-ci il noyabrın 8-də Prezident İlham Əliyev Şuşanın azad olunması münasibətilə xalqa müraciətində qeyd etmişdi ki, Qarabağın tacı olan bu şəhər tezliklə dirçəldiləcək və özünün əvvəlki şöhrətini qaytaracaqdır. Ötənilki festivalın açılış mərasimində isə dövlətimizin başçısı "Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" festivalı Şuşada hər il keçiriləcək", - demişdi. V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının keçirilməsi Azərbaycan Prezidentinin bu fikirlərinin əyani təsdiqidir.

Qeyd edək ki, Şuşa şəhərində ilk "Xarıbülbül" festivalı məşhur xanəndə, pedaqoq, Xalq artisti Seyid Şuşinskinin (1889-1965) 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildə keçirilib. Tədbir həmin ilin mayında - Şuşada xarıbülbülün çiçəklənmə dövründə təşkil olunub. İlk festivalda yerli ifaçılarla yanaşı, keçmiş ittifaq respublikalarından Qırğızıstan, Qazaxıstan, Rusiya (Başqırdıstan), Litva və Belarusdan da musiqi qrupları iştirak ediblər.

# Prezident Administrasiyasında növbəti görüş keçirilib



Mayın 13-də Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ilə Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev arasında görüş keçirilib.

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Ədalət Vəliyev cəmiyyətin inkişafı naminə ölkəmizdə iqtidar-müxalifət əməkdaşlığından söz açıb, dayanıqlı demokratik ənənələrin dərinləşməsində siyasi partiyaların rolunun yüksək olduğunu vurğulayıb. Şöbə müdiri İkinci Qarabağ müharibəsi, Qələbə və yeni siyasi reallıqlar barədə fikirlərini səsləndirib, Prezident İlham Əliyevin çıxışından sitat gətirib: "...Bu gün isə bizim qarşımızda bu Qələbəni siyasi yollarla möhkəmləndirmək, erməni faşizminin baş qaldırmasına yol verməmək, beynəlxalq müstəvidə keçmiş münaqişə ilə və indiki reallıqlarla bağlı, o cümlədən dağıdılmış ərazilər haqqında məlumat çatdırmaq vəzifəsi durur. Bizim partiyalarımızın bəziləri beynəlxalq partiya qurumlarına üzvdürlər. Bu məlumat o qurumlar çərçivəsində verilməlidir. Yəni bu, gələcək fəaliyyət üçün əsas istiqamət olmalıdır".

Görüşdə, həmçinin "Siyasi partiyalar haqqında" qanunun layihəsi üzrə müzakirələr aparılıb. Şöbə müdiri bildirib ki, qanun layihəsi ilə əlaqədar bir sıra siyasi partiyalar tərəfindən təkliflər təqdim olunub. Eyni zamanda, təəssüflə vurğulanıb ki, əksər partiyalar bu məsələdə fəallıq göstərməyiblər.

Elşən Musayev ölkəmizdə aparılan siyasi dialoqu və dialoq çərçivəsində görülmüş işləri yüksək qiymətləndirib, eləcə də radikal müxalifətin cəmiyyətin parçalanmasına xidmət edən sərt ritorikasını tənqid edib. Partiya sədri siyasi partiyaların işğaldan azad olunmuş ərazilərə təşkil olunmuş birgə səfərlərini xatırladaraq, bu cür müsbət təcrübənin davamlı olmasını arzulayıb.

Görüşdə qeyd edilib ki, Azərbaycan Demokratik Maarifçilik Partiyasının da təmsil olunduğu Milli Məclisdə ümumilikdə 10 müxalifət partiyasının yer alması ölkəmizdə demokratik mühitin təzahürüdür. Bu partiyaların nümayəndələrinin ilk dəfə olaraq Milli Məclisin, həmçinin komitə və komissiyaların rəhbərliyində vəzifə tutması xüsusi vurğulanıb.

Elşən Musayev Regional məsələlər komitəsinin sədr müavini kimi fəaliyyətindən söz açaraq parlamentin son illərdə müxtəlif istiqamətlərdə əldə etdiyi uğurlar, qarşıda duran vəzifələr, eləcə də qanunvericilik hakimiyyətinin icra hakimiyyəti orqanları ilə əməkdaşlığının daha da təkmilləşdirilməsi perspektivləri barədə danışıb. Ədalət Vəliyev konstruktiv əməkdaşlığın əhəmiyyətini vurğulayaraq, Elşən Musayevə və onun sədrlik etdiyi siyasi partiyaya dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətində gələcək fəaliyyətində uğurlar arzulayıb.

# Rossana Boldi: "Azərbaycanla strateji tərəfdaşlığın gücləndirilməsində maraqlıyıq"

***İtaliya Azərbaycanla strateji tərəfdaşlığın gücləndirilməsində maraqlıdır. Bu sözləri AZƏRTAC-a müsahibəsində İtaliya Deputatlar Palatasının üzvü, İtaliya-Azərbaycan Dostluq Assosiasiyasının sədri Rossana Boldi deyib.***

"İtaliya ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunması əlamətdar hadisədir. Ötən illər ərzində iki ölkə arasında siyasi və iqtisadi əlaqələr yüksələn xətlə inkişaf edib. Xüsusilə enerji sektorunda əməkdaşlıq hər iki ölkəyə fayda gətirib, Azərbaycan İtaliya üçün etibarlı təchizatçıya çevrilib. Dövlət başçılarının qarşılıqlı səfərləri əlaqələrin inkişafında xüsusi rol oynayıb. Biz Azərbaycan ilə strateji tərəfdaşlığın gücləndirilməsində maraqlıyıq. İtaliya Azərbaycanla dostluq münasibətlərini davam etdirməyə və möhkəm tərəfdaşlıq etməyə hazırdır", - deyə italiyalı deputat vurğulayıb.



# Qafqazın incisi olan Şuşa müasir dünyamızın ahəngində

## *İlham Əliyev: "Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bərpa edirik"*










***Azərbaycanın dilbər guşəsi Qarabağımız müasir dünyamızda yeni dövrünü yaşayır. 30 ilə yaxın işğal altında olan torpaqlarımız azad olunandan sonra Qarabağımız müasir dünyanın ahəngində qurulur, ona yeni həyat verilir. Əsrlərin yaddaşında özünə yuva qurmuş Qarabağımızın tarixi, daşı, qayası, mədəniyyət abidələri, dini ocaqları hər zaman möhtəşəmliyi ilə diqqətdə olmuş və qürurla səhifələdiyimiz daş abidələrdə öz əksini tapmışdır. Bu gün Zəfər qazanan Azərbaycan tarixin dönəmində inkişaf yolu keçmiş Qarabağımızda böük quruculuq işlərinə başlanılıb. Yolumuzu həsrətlə gözləyən Qarabağ əzəli sakinlərinə qovuşur.***

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şuşadan müraciətində bildirdiyi kimi, ”Bütün bölgələrdə quruculuq-bərpa işləri sürətlə gedir, azad edilmiş bütün ərazilərdə genişmiqyaslı abadlıq-quruculuq və bərpa işləri aparılır. Əslində, şəhərlər, kəndlər yenidən qurulur. Çünki işğal dövründə düşmən bütün şəhər və kəndlərimizi yerlə-yeksan etmişdir, bütün tarixi abidələrimizi dağıtmışdır, Qarabağın, bölgənin, Qafqazın incisi olan Şuşa kimi şəhəri bərbad hala qoymuşdur. Biz - bu torpaqların sahibləri artıq qayıtmışıq və bu torpaq, bu səma bunu görür. Görür ki, hər gün inkişafla bağlı daha bir addım atılır. Hər gün daş üstə bir daş qoyulur. Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bərpa edirik.”

Bu gün Şuşamızda, Zəngilanda, Laçında və digər ərazilərdə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Tezliklə işğaldan azad olunan hər bir şəhər, qəsəbə və kənd müasir məkana çevriləcəkdir. Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın Füzuli və Şuşa şəhərlərinə səfərləri zamanı burada görülən işlərlə tanışlıq və təməlqoyma mərasimlərinin keçirilməsi böyük abadlıq-quruculuq işlərinin davamı olmaqla yanaşı, burada görülən işlərin sürətlə aparıldığını bir daha təsdiqləmiş olur. İşğaldan azad olunmuş ərazilərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan bərpa-quruculuq işləri ilə yanaşı, bu ərazilərdə ermənilərin ekoloji sistemə vurduqları zərərin nəticələrinin aradan qaldırılması istiqamətində də işlər aparılır. Ermənilər işğal dövründə ərzilərimizi darmadağın etdikləri kimi, ekoloxi mühitə də böyük zərbə vurub. Təbii ki, işğaldan azad olunmuş ərazilər minalardan təmizlənib təhlükəsiz vəziyyətə gətirildikcə, quruculuq-abadlıq işləri, ekoloji tarazlığın bərpası istiqamətində ardıcıl işlər görülür.

### ŞUŞANIN TARİXİ MEMARLIQ ABİDƏSİ - ŞİRİN SU HAMAMI

Əlbəttə ki, tarixi görkəmin bərpası önəmli məsələlərdəndir. Bu ərazilərdə, eləcə də Şuşada bir-birindən böyük əhəmiyyət kəsb edən abidələrimiz var və onların bərpası istiqamətində ardıcıl işlər görülür. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri qədim mədəniyyət və memarlıq abidələri ilə zəngindir. Qədim Şuşanın 17 məhəlləsinin hər birində hamam, məscid və bulaq olub. Burada - Şuşadakı Şirin su hamamı da diqqəti cəlb edir. Şəhərin Mərdinli məhəlləsində yerləşən Şirin su hamamının tarixinə nəzər salsaq görərik ki, bu hamam 1880-ci ildə inşa edilib. Vaxtilə şəhərin digər hamamlarında ərazilərdəki şor quyu sularından istifadə olunub. Bu hamam isə Xan qızı Xurşidbanu Natəvanın Şuşaya çəkdirdiyi içməli şirin su ilə təchiz edilib. Məhz buna görə də hamam Şirin su hamamı adlandırılıb. 1986-cı ildə aparılan ölçü işlərindən sonra memar Ədalət Məmmədov tərəfindən hazırlanan layihə üzrə abidədə əsaslı bərpa-təmir işləri görülüb. Şirin su hamamı 1992-ci il mayın 8-də Şuşa şəhəri ermənilər tərəfindən işğal edilənədək öz təyinatı üzrə fəaliyyət göstərib. İşğal dövründə digər bütün abidələrimiz kimi bu qədim hamam da ermənilər tərəfindən dağıdılıb. Bu gün bir çox tarixi abidələrimiz kimi, Şirin su hamamında bərpa işləri Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. Milli memarlıq ənənələrini özündə əks etdirən hamamın birmərtəbəli binası plan kompozisiyasına görə düzbucaqlı formadadır. Hamam ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısındadır və tarixi görkəmi qorunub saxlanılmaqla bərpa ediləcək.

### MEHMANDAROVLAR MALİKANƏ KOMPLEKSİNƏ HEYDƏR ƏLİYEV FONDU TƏRƏFİNDƏN YENİ HƏYAT VERİLİR

Şuşanın tarixi memarlıq abidələrindən, tarixi simaların söz açarkən Mehmandarovlar ailəsini vurğulamaq yerinə düşər. Bildiyimiz kimi, Qarabağ xanlığının idarə etmə aparatında bir çox hərbi və mülkü vəzifələr vardı. Bu vəzifələrdən biri də mehmandar idi. Mehmandarın vəzifə borcu xanlığa gələn fəxri qonaqları ölkənini sərhəddində qarşılayıb, müəyyən qonalqalarda istirahət etdirib, paytaxta, divan-dərbara gətirmək idi. Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin (1762-1806) ağalıq dönəmində mehmandar Mirzə Əli bəy idi. Mirzə Əli bəyin törəməsi sonralar Mehmandarov soyadını qəbul etdilər. Bu soyadın yaranması haqqında fərqli fərziyələr də var. Təzkirəçi Məhəmməd ağa Müctəhidzadə Mirzə Əli bəyin səxavətli, süfrəçi, qonaqpərvər olduğundan dolayı bu soyadın yarandığını qeyd edir. O, yazır: ”Mirzə Əli bəy məbrur isə sahibi-süfreyi-cud və mehmannəvaz bir vücud imiş ki, o səbəbə onun övladi-əmcadi Mehmandarov məşhurdurlar”.

Şuşa şəhərində Azərbaycanın XVIII əsr mülki memarlığının ən maraqlı nümunələrinən biri olan saray tipli tarixi yaşayış kompleksi Mehmandarovların malikanə kompleksi yerləşir. Vaxtilə Mehmandarovlar ailəsinə məxsus olmuş yaşayış kompleksinə Böyük yaşayış binası, Kiçik yaşayış binası və ailə məscidi daxildir. Kompleks daş divarlarla əhatələnmişdir. Mehmandarovların böyük yaşayış binası sovet dövründə Şuşa Şəhər Xəstəxanası kimi fəaliyyət göstərmişdir. İşğaldan sonra böyük bina tamamilə dağıdılıb. Kompleks ərazisindəki məscid həm də məhəllə məscidi funksiyasını yerinə yetirmişdir. 2020-ci ildə Şuşa işğalçılardan azad edildikdən sonra Mehmandarovların malikanə kompleksində təmir-bərpa işləri aparılır. Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva Şuşada Mehmandarovların malikanə kompleksində aparılan bərpa işlərinin hazırkı mərhələsi ilə tanış olublar. Şuşada Mehmandarovların malikanə kompleksində də Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işləri davam edir.

İşğal dövründə ciddi ziyan dəyən, ermənilər tərəfindən dağıntılara məruz qalan malikanə kompleksində mütəxəssislər qiymətləndirmə işləri aparıb, bunun əsasında bərpa prosesi icra olunur. Kompleksə məscid, kiçik və böyük yaşayış evləri daxildir. Ötən müddətdə evin dam örtüyü orijinala uyğun quraşdırılıb, binanın tökülmüş bütün daşları, eyvanları, həmçinin kompleksə daxil olan məscidin uçmuş günbəzləri, damı və mehrabı bərpa edilib. Hazırda digər bərpa işləri aparılır. Kompleksin həyətində bulağın bərpası yekunlaşıb, landşaft işlərinə hazırlıq görülür.

### AZAD ŞUŞAMIZDA ABADLIQ VƏ QURUCULUQ İŞLƏRİ

Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa şəhərinə səfəri çərçivəsində ”Azəri-şıq” ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak etməsi uğurlu layihələrin davamıdır. Şuşada Rəqəmsal İdarəetmə Mərkəzinin istifadəyə verilməsi şəhərin dayanıqlı və keyfiyyətli enerji ilə təchizatı baxımından əhəmiyyətli hadisədir. Yeni şəbəkənin istifadəyə verilməsi ilə ənənəvi 35/10 kV-luq yarımstansiyaların və 10 kV-luq elektrik verilişi xətlərinin tikintisi, saxlanma və istismar xərcləri aradan qaldırılacaq, texnoloji itkilər minimuma endirilməklə, ətraf mühit və canlı orqanizmlərə elektromaqnit sahə şüalanmasının mənfi təsiri azaldılacaq, xidmət heyəti və texniki nəqliyyat vasitələri ixtisar ediləcək, xidmətin keyfiyyəti yaxşılaşdırılacaq.

Elektroenergetika sahəsində ilk dəfə olaraq, Şuşa Rəqəmsal İdarəetmə Mərkəzində yarımstansiyanın qəza hallarında enerji təchizatının təmin edilməsi və yarımstansiyanın xüsusi sərfiyyat tələbatının kompensasiyası üçün alternativ və bərpaolunan enerji mənbəyindən istifadə tətbiq edilib, texniki-iqtisadi göstəricilər yüksəldilib, avadanlıqların fasiləsiz qidalandırılması təmin olunub.

Əlbəttə ki, Şuşa şəhəri müasir görkəm alır. Hər görülən iş Şuşanın tezliklə müasir şəhərə çevriləcəyindən xəbər verir.

***Zümrüd BAYRAMOVA***



# “Xarıbülbül” festivalı

## VƏTƏNDAŞLARIN GÖZÜNDƏ - SORĞU

***1989-cu ildən başlayaraq hər ilin mayında Şuşa şəhərində keçirilən Xarıbülbül Musiqi Festivalı Azərbaycanın mədəni həyatında mühüm hadisələrdən biri olmuşdur. Bu festivalda nəinki keçmiş SSRİ respublikalarından, hətta bir çox xarici ölkələrdən nümayəndələr iştirak etdiyindən festival beynəlxalq status daşıyırdı. Lakin təəssüf ki, 1992-ci il mayın 8-də Şuşa şəhərinin Ermənistan ordusu tərəfindən işğalından sonra bu festivalın keçirilməsi dayandırıldı. Lakin Ali baş komandan və rəşadətli ordumuz nəticəsində Şuşa 8 noyabr 2022-ci ildə düşmən tapdağından azad olundu.***

Cənab Prezidentin 2021-ci il 7 may tarixli sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın Mədəniyyət paytaxtı elan edilərkən Vaqif Poeziya günləri və ”Xarıbülbül” festivalının bərpasına da start verildi. Və artıq 2021-ci il mayın 12-i və 13-də biz azad Şuşada ”Xarıbülbül” festivalının yenidən keçirildiyinin şahidi olduq. Ənənəyə sadiq qalar bu festival bu il yenidən Qarabağın cənnət guşəsi olan Şuşa şəhərində keçirilir. Mövzu ilə əlaqədar olaraq SİA şəhər sakinlərinin ”Xarıbülbül” festivalı barədə fikirlərini öyrənmək məqsədi ilə sorğu keçirib.



**Şəhər sakini Ədalət Muradov:** ”Şuşada ”Xarıbülbül” festivalının keçirilməsi çox möhtəşəm bir addımdır. Çünki bu kimi tədbirlər Qarabağımızın tanınmasında mühüm rol oynayır. Demək olar ki, bu Festival nəticəsində bütün dünya bir daha bizim ölkəmizlə tanış olur. Bu Festival günü demək olar ki, dünyanın gözü işğaldan azad olunmuş Şuşada olur”.



**Şəhər sakini Arzu Əlizadə:** ”Düşünürəm ki, təkcə ”Xarıbülbül” Festivalı deyil, başqa simvollar adı altında da beynəlxalq festivallar olmalıdır. Bu kimi festivallar bütün dünyanın bizim mədəniyyətimizlə, tariximizlə, coğrafiyamızla tanış olmasına zəmin yaradır. Bir vətəndaş olaraq mən də bu kimi festivallarda iştirak etməyi çox istərdim”.



**Şəhər sakini Rəfael Aydınoğlu:** ”Ölkəmizdə mədəniyyət sahəsinin inkişaf etməsi üçün bu kimi beynəlxalq festivalların çox önəmi var. Həmçinin bu festivallarda bizim mədəniyyət xadimlərimizin də iştirak etməsi çox vacibdir. Fikrimcə, belə tədbirlər təkcə Şuşada yox, işğaldan azad olunan digər rayonlarımızda da təşkil olunmalıdır”.



**Şəhər sakini Aytac Babayeva:** ”Məncə, ”Xarıbülbül” festivalı bizim tariximiz üçün çox böyük əhəmiyyətə malikdir. Çünki gələcəkdə uşaqlarımızı da bu haqqda söhbət açarkən, onlara müəyyən şeyləri əyani göstərmək üçün yardımçı olacaq. Bilirsiz ki, Qarabağ Azərbaycan üçün başqa bir məfhumdur. Bununla da əlaqədar olaraq Qarabağın da simvolu xarıbülbüldür. Məhz bu baxımdan festivalın da adının ”Xarıbülbül” adlandırılması dərin məna kəsb edir”.



**Şəhər sakini Elnur Səmədov:** ”Mən bir musiqiçi olaraq bu kimi beynəlxalq festivallarda iştirak etmək istərdim. Azərbaycan dövləti və milləti bütün dünyada incəsənət ölkəsi olaraq tanınır. Həmçinin Üzeyir Hacıbəylinin sayəsində bütün dünya bizi opera ölkəsi kimi tanıyır. Yəni bununla əlaqədar olaraq bu kimi festivalların məhz Şuşada keçirilməsi böyük tarixi əhəmiyyətə malikdir”.



**Şəhər sakini Aynur Mayılova:** ”Bu kimi tədbirlər cənnət güşə olan Şuşamızın Azərbaycan üçün nə dərəcədə əhəmiyyətli olduğunu sübut edir. Bizim şəhidlərimiz və qazilərimizin qarış-qarış aldığı Qarabağ torpaqları hər bir azərbaycanlı üçün müqəddəs məkandır. Allah bütün şəhidlərimizə rəhmət, qazilərimizə də şəfa versin. Onlar bizə haqlarını halal etsin ki, biz o torpaqlarda rahat-rahat gəzə bilək”.



**Şəhər sakini Valeh Talıbzadeh:** ”Mən solistəm və dostumla bərbabər ”Mərdi-Məkan” adlı ansamblı qurmuşuq. Bu ansamblda gözdən əlil olan insanlar iştirak edirlər. Öz görməmdə də müəyyən problemlər var. Həmçinin dostumla mən Gözdən Əlillər Cəmiyyətinin üzvüyük. Bununla əlaqədar olaraq istərdik ki, bizim üçün də bir şərait yaradılsın və biz də ”Xarıbülbül” festivalında iştirak edə bilək”.

# "Nazirlər Kabinetinin Qərarı mətbuatın iqtisadi müstəqilliyini daha da möhkəmləndirəcək"

"Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin son 18 ildən artıq dövrdə azad mətbuatın inkişafı istiqamətində atdığı addımların xronologiyasına diqqət yetirsək, bu prosesin dövrün tələblərini özündə ehtiva etdiyini böyük əminliklə söyləyə bilərik. Söz və fikir azadlığı hər bir dövlətin, xalqın həyatında mühüm amil olmaqla yanaşı, onun inkişaf səviyyəsini göstərir. Azərbaycan demokratik, hüquqi dövlətdir. Ölkəmizdə demokratik cəmiyyətin varlığını təsdiqləyən bütün təsisatların inkişafı, o cümlədən mətbuat azadlığı yüksək səviyyədə təmin olunub. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, artıq cəmiyyətin ayrılmaz bir parçasına çevrilən internetin azad olduğu ölkədə mətbuat azadlığının boğulmasından danışmaq mümkün deyil. Ölkəmizdə əhalinin 85 faizi internet istifadəçisidir. Mətbuat milli özünüdərkin bərqərar olmasında, yetişməkdə olan nəslə vətənpərvərlik hisslərinin aşılanmasında, azərbaycançılıq ideologiyasının, ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynayır. Bütün dövrlər üçün aktuallığını qoruyan əsas məsələ budur ki, müasir dövrün yaratdığı imkanlardan maksimum bəhrələnərək müxtəlif dillərdə internet resursları yaratmaqla həqiqətlərimizin beynəlxalq arenada təbliğinə böyük töhfələr verməliyik. 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimizdə Azərbaycanın diplomatik qələbəsinin rolunu nəzərə alarkən, bu işdə ictimai fikrə təsir imkanları böyük olan yazılı və elektron KİV-lərin payını da xüsusi qeyd etməliyik. Cənab İlham Əliyevin 44 günlük müharibə dövründə dünyanın 30-dan artıq yaxın nüfuzlu media qurumlarına, o cümlədən televiziya kanallarına və informasiya agentliklərinə müsahibələrinin hər biri Azərbaycanın informasiya cəbhəsində də üstünlüyünün təqdimatı kimi dəyərləndirildi". Bu fikirləri "İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.



V.Rəhimzadə qeyd edib ki, yeni texnologiyaların inkişaf etdiyi müasir dövrdə media sahəsində islahatların dərinləşdirilməsi mütləqdir: "Dövlət başçısı İlham Əliyevin vurğuladığı kimi, islahatlar təkmilləşmə, yeni dövrə uyğunlaşma, tərəqqi deməkdir. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, onlar bu nailiyyətləri məhz tərəqqi hesabına əldə ediblər." Söz və məlumat azadlığının təmin olunması sahəsində həyata keçirilən siyasət nəticəsində bu gün Azərbaycan KİV-in sayına görə MDB və Şərqi Avropa ölkələri arasında ön sıralardadır. Ölkəmizdə beynəlxalq standartlara uyğun elektron və yazılı KİV formalaşıb. Azərbaycanda həmçinin internet jurnalistikası da sürətlə inkişaf edir."

V.Rəhimzadə bildirib ki, qeyd etdiklərimizin fonunda ölkə Prezidenti İlham Əliyevin 12 yanvar 2021-ci il tarixli "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanının əhəmiyyəti, aktuallığı daha aydın şəkildə görünür: "Fərmanda da qeyd edildiyi kimi, qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğun olaraq modernləşmə, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi və digər mühüm şərtləri özündə birləşdirən innovativ təkamülün yaratdığı imkanlardan Azərbaycan mediasının daha çox bəhrələnməsi, onun şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması üçün bu sahədə əsaslı islahatlar aparılmasına zərurət yaranmışdır. Ölkəmizdə medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədilə imzalanan bu sənədə uyğun olaraq Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA) yaradıldı. Qurumun qısa dövrdə azad mətbuatın inkişafına yönələn addımları təqdirəlayiqdir. MEDİA-nın fəaliyyətində jurnalistlərin məsuliyyətinin və peşəkarlığının artırılması prioritet məsələdir. Bu baxımdan MEDİA-nın yarandığı gündən indiyədək həyata keçirdiyi biri-birindən əhəmiyyətli layihələr mətbuatın inkişafına xidmət edən addımlar kimi dəyərləndirilməlidir. Atılan bütün addımların əsasında cəmiyyətin informasiya tələbatının daha dolğun şəkildə ödənilməsi dayanır. Məhz bütün bunların sayəsində mətbu orqanların yaradıcılıq imkanlarını genişləndirməklə hədəflərə yüksək səviyyədə nail olmaq mümkündür. Mətbuat nümayəndələrinin, ümumilikdə, cəmiyyət üzvlərinin ümumi təklifləri əsasında beynəlxalq standartlara uyğun şəkildə hazırlanan "Media haqqında" yeni qanun layihəsi geniş müzakirələrdən sonra qəbul olundu. İctimai müzakirəyə verilən qanun layihəsi ilə bağlı təklif və iradların səslənməsi bir daha ölkəmizdə demokratik mühitin mövcudluğunu, hər kəsin öz fikirlərini azad şəkildə ifadə etmək imkanlarına malik olduğunu təsdiqlədi. "Media haqqında" yeni qanun layihəsi, eyni zamanda, beynəlxalq mütəxəssislərin də müzakirəsinə verildi. Bu da öz növbəsində Azərbaycan mətbuatının dünya informasiya məkanına inteqrasiyasının, ölkəmizin beynəlxalq təcrübəyə xüsusi önəm verməsinin göstəricisi hesab oluna bilər. Şübhə etmirəm ki, yeni qanundan irəli gələn vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsi ilə mətbuatın qarşısında geniş imkanlar açılacaq."

Baş redaktor bu uğurlar fonunda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 may 2022-ci il tarixli Qərarına da diqqəti yönəldib. "İdxalı və satışı əlavə dəyər vergisindən azad edilən kütləvi informasiya vasitələri məhsullarının və kitabların (elekton kitablar istisna olmaqla), habelə dərslik komplekslərinin və həmin malların (məhsulların) istehsalı (nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın Siyahısı"nın təsdiq edilməsi barədə Qərara əsasən, Azərbaycanda kütləvi informasiya məhsullarının, kitabların və dərslik komponentlərinin, həmçinin həmin məhsulların istehsalı və nəşri ilə bağlı kağızın idxalı və satışı əlavə dəyər vergisindən (ƏDV) azad edilib. Yəni, məlum Qərara əsasən, bundan sonra kitab, qəzet, jurnal və onların istehsalı ilə bağlı kağız məhsullarının idxal və satışına görə 18 faiz ƏDV tutulmayacaq.

Vüqar Rəhimzadə 2021-ci ilin dekabrında dövlət başçısı İlham Əliyevin Fərmanı ilə Vergi Məcəlləsinə edilmiş müvafiq dəyişikliyə dair siyahının təsdiqinin də Nazirlər Kabinetinə həvalə olunduğunu önə çəkərək bildirib ki, bu Qərar çap mediası məhsullarının maya dəyərini və onların istehsal xərclərini əsaslı şəkildə azaltmaqla inkişafına təkan verəcək: "Ölkəmizin iqtisadi və maliyyə imkanlarının genişlənməsi bütün sahələrin, o cümlədən mətbuatın inkişafına, medianın iqtisadi müstəqilliyinin təmin olunmasına yönələn addımların davamlılığını şərtləndirir. Vergi Məcəlləsinə edilmiş müvafiq dəyişiklik və 13 may 2022-ci il tarixdə imzalanan Qərar media sahəsində aparılan əsaslı islahatların ardıcıllığının təmin edilməsinin, bu sahədə tədbirlərin kompleks şəkildə həyata keçirilməsinin təzahürü olmaqla, çap mediası subyektlərinin, çap məhsullarının yayımını həyata keçirən şirkətlərin səmərəli fəaliyyətinə, iqtisadi dayanıqlılığının artmasına öz müsbət təsirini göstərəcək.

Baş redaktor bu ümumiləşdirməni aparıb ki, tarixi Zəfərimiz bütün sahələrin, xüsusilə cəmiyyətimizin güzgüsü olan mətbuatın qarşısında yeni tələblər qoyur: "Bu tələblər öz növbəsində islahatlar prosesinin dərinləşdirilməsini, mətbuatın inkişafında əsas faktor olan iqtisadi müstəqilliyin daha da möhkəmləndirilməsini bir zərurətə çevirir. Ölkəmizin iqtisadi imkanları artdıqca hədəflərə yüksək səviyyədə və zamanında nail olmaq da qarşısıalınmaz prosesə çevrilir."

# "Kağız idxalının ƏDV-dən azad edilməsi çap mediasının səmərəli fəaliyyətinə əhəmiyyətli təsir göstərəcək"



***Azərbaycan Respublikasının Baş nazirinin imzaladığı müvafiq qərarla ölkəmizdə kütləvi informasiya məhsullarının, kitabların və dərslik komponentlərinin, həmçinin həmin məhsulların istehsalı və nəşri ilə bağlı kağızın idxalı və satışı əlavə dəyər vergisindən (ƏDV) azad edilib.***

Trend xəbər verir ki, məsələ ilə bağlı Medianın İnkişafı Agentliyinin mətbuat katibi Səidə Şəfiyeva bildirib ki, son vaxtlar dünyada qiymət artımının həm də kağız məmulatlarına təsir etməsi daxili bazarda da müşhaidə olunurdu. Qiymətlərin yüksəlməsinin istifadəçilərə və media subyektləri üzərində xərclərin minimallaşdırmasına dəstək məqsədilə dövlət bu tip məhsulların idxalından 18 faiz əlavə dəyər vergisini azad edib. Bu qərar daxili bazarda həmin məhsulların qiymətlərinin əlavə dəyər vergisi qədər ucuzlaşmasını, qiymətlərin aşağı olmasını stimullaşdıracaq və çap mediası məhsullarının maya dəyərini və istehsal xərclərini əsaslı şəkildə azaltmaqla inkişafına təkan verəcəkdir.



S.Şəfiyeva onu da vurğulayıb ki, Medianın İnkişafı Agentliyində məsələ ilə bağlı ölkənin çap mediası subyektlərinin rəhbərləri və yayım şirkətləri ilə görüş və müzakirələrdə səsləndirilən fikirlər bu yanaşmanı dəstəkləyir. Medianın İnkişafı Agentliyinin nümayəndəsi onu da əlavə edib ki, qərar çap mediası subyektlərinin və yayım şirkətlərinin səmərəli fəaliyyətinə və iqtisadi dayanıqlılığının artmasına əhəmiyyətli dərəcədə təsir göstərəcəkdir.

# Cahit Bağcı: "Azərbaycanın inkişafı üçün bir çox layihələr həyata keçiriləcək"



***"Azərbaycan-Türkiyə diplomatik münasibətlərinin 30-cu ildönümünü taclandıran "Şuşa bəyannaməsi"ndən sonra inkişaf edən əməkdaşlığımız bu gün də yüksək səviyyədə davam edir. İki ölkə arasındakı əlaqələrin bütün sahələri əhatə etməsi üçün əlimizdən gələni edirik". SİA xəbər verir ki, bu fikirləri Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı jurnalistlərə açıqlamasında deyib.***

Onun sözlərinə görə, bütün sahələrdə Azərbaycanın inkişafı üçün bir çox layihələrin həyata keçirilməsi planlaşdırılır: "Xəstəxana idarəçiliyi və maliyyə mövzusunda Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, eləcə də digər aidiyyəti qurumlarla əməkdaşlıq davam etdiriləcək. Hətta akademik təcrübənin də Azərbaycanda tətbiqi də planlaşdırılır".

# Lidersiz erməni hərəkatı..?

***...Bu gün bəzi həmkarları "and-aman edirlər" ki, guya Nikol Ermənistanın xarici siyasət vektorunu artıq Qərbə doğru yönəldir, amma mən əminliklə deyirəm ki, bu yalandır. Əslində isə o ölkənin xarici siyasət vektorunu Qərbə yox, Türkiyəyə doğru dəyişir. Deyim ki, bu barədə Serjik Sarkisyanın rəhbəri olduğu partiyanın mətbuat katibi Eduard Şarmazanov öz "Facebook" səhifəsində yazıb.***

Şarmazanovun dediyinə görə, guya son günlər Nikolun qeyri-parlament "müştəriləri" Rusiya əleyhinə "yersiz" bəyanatlar verməyə başlayıblar. Amma bütün bunlara susqunluq nümayiş etdirən Nikol Paşinyan isə Rusiyaya "düşmən" olan bir ölkəyə - Niderlanda səfərə gedir.

Şarmazanov sabiq səlahiyyətli kimi, bəyan edərək bildirir ki, "...mən həmişə demişəm və indi də deyirəm, Ermənistan ən yaxın müttəfiqi olan Rusiya ilə siyasi, iqtisadi, təhlükəsizlik münasibətlərini həmişə gücləndirməlidir".

Bilirsiniz niyə? Şarmazanov bunun da cavabını verir: "...çünki Qarşı tərəfdə Türkiyə var... Buna görə də, NATO-nun intriqalarında iştirak edib, bununla da Ermənistanı birbaşa Türkiyənin təsiri altına salmaq istəyiniz yetər". Deyim ki, Şarmazanova görə "...bunun qarşısını almaq üçün yeganə yol Nikolu hakimiyyətdən uzaqlaşdırmaqdır".

Amma necə? Bu gün Şarmazanovun ətrafında olan bir-neçə "gədə-güdə" istisna olmaqla, ölkədəki əksər ermənilərin Nikol Paşinyana dəstək verdikləri göz önündədir axı. Təbii ki, bunu təkcə Şarmazanov yox, onunla birlikdə İrəvandakı "küçə harayçıları" da yaxşı bilirlər.

Məsələn, İrəvanın küçə yürüşlərinin ilk "təşkilat və təbliğatçı"larından biri olduğunu iddia edən Artur Vanetsyan da gücsüzküklərini başa düşsə də amma özünü o yerə qoymayıbn yürüşü"profilini" dəyişmək istədikləri barədə düşündüyünü bildirir. Amma necə?

Vanetsyan deyir ki, "...əgər bu gün biz gedib hökumətin və ya parlamentin binasını zəbt etsək, bu, bizə nə verəcək? Əlbəttə ki, heç nə...amma hakimiyyətə hərəkatın liderlərini, "çoxsaylı yürüşçüləri", saxlamağa və ümumiyyətlə hərəkatı dayandırmağa imkan verəcək".

Maraqlıdır ki, buna baxmayaraq, sabiq "nikolçu" Vanetsyan da Şarmazanov kimi nəyəsə ümid edir və bunu hətta gizlətməyib "...kritik məqamın yetişdiyini, belə bir addıma əl atmağın lazım olduğunu anlayanda biz buna əl atacağıq" deyir.

O da maraqlıdır ki, Vanetsyanın ehtimalına görə, artıq ölkədə vəziyyət dəyişib və guya ermənilərin demək olar ki,100 faizi Nikolun getməsi ilə bağlı "razılığa" gəliblər.




Nikol Paşinyanın mümkün istefasından sonra formalaşacaq hökumətin tərkibinə, baş nazir postuna namizəd məsələsinə gəlincə isə, Vanetsyan bir qədər tərəddüdlə də olsa,.. ölkədə xeyli peşəkar, öz sahələri üzrə yaxşı mütəxəssislər olduğunu deyir. Bu arada qeyd edim ki, ötən küçə yürüşlərinin birində "Daşnaksütyun"un Ermənistandakı "səlahiyyətli"si İşxan Saqatelyanın "...bu hərəkatın lideri yoxdur, ümummilli hərəkatdır" deməsi Vanetsyanı elə də qane etməyib.

...Təbii ki, etməməlidir. Bəs, onda belə "möhtəşəm" küçə yürüşünün ilk "təşkilat və təbliğatçısı" kimi Artur Vanetsyan kimdir?

***Ağasəf Babayev***

# Pomidor - alma kimi...

Son illər ölkəmizdə fəaliyyət göstərən bəzi istixanalarda keyfiyyətli pomidor sortları yetişdirilir. Bu sortların toxumlarını haradan alırlar, haradn gətirirlər, nə cür əldə edirlər, deyə bilmərəm. Ancaq maşallah deyək ki, göz dəyməsin. Vallah, sözün həqiqi mənasında qürur duyur insan. Mən deyim nəyə görə, siz də dinləyin. Əvvəllər gedirdin bazara pomidor alırdın. Bilmirdin ki, onu evə necə çatdırasan. Bütün aldıqlarını bir ayrı zənbilə yığmalıydın, pomidoru bir ayrı zənbildə ayrıca götürməli idin ki, evə sağ-salamat çatdıra biləsən. Yanından yel ötməmiş əzilirdi. Yaxşı, bir təhər evə çatdırdın. Bircə günün içərisində də yeyilib qurtarırdı 2-3 kiloqram pomidor. Bax bilmirəm bu, niyə belə olurdu.

Ancaq indi pomidor ta adama əvvəlkilər kimi əziyyət vermir. Bazara get, marketə get, nə istəyirsən al, yığ bir zənbilə, istəyirsən pomidoru da lap altdan yığ. Evə qayıdanda marşrut avtobuslardakı o dəhşətli sıxlığa düş, bəzi küçələrdə qazılıb aylarla təmir etdilməyən çalalara ayağın keçsin, yıxıl, yenə də evdə zənbilini boşaldanda görəcəksən ki, pomidorların heç burnu da qanamayıb. Yenə də maşallah.

Vallah, inkişaf, yenilik, tərəqqi çox gözəldir. Kimin ağlına gələrdi ki, uzun illər aldığımıza bizi peşman edən pomidor illər sonra bizi belə şad-xürrəm edəcək. Hələ əzilməsini qoyaq bir kənara. Əvvəlki pomidorlar soyuducuda bir neçə gün qalandan sonra suyu axırdı, soyuducunu korlayırdı. Gəl indi buyur, təmizlə. Ancaq indiki pomidorlar, maşallah, həftələrlə qalır soyuducuda, əhvalı belə pozulmur. Həm də neçə gözəl doğranır, alma kimi. Hətta almanı doğrayanda eşitdiyin o şaqqıltı səsini də dinlədikcə, maşallah belə inkişafa deyirsən. Həm də bərəkəti də var. Bir pomidor doğrayırsan, külfət yeyir, hələ boşqabda da qalır.



FELYETON

Düşünürsən ki, İlahi, görəsən hansı texnologiya ilə yetişdirilir bu pomidorlar? Əvvəllər də insanlar eyni insanlar idi də. Görəsən nə dəyişib ki? Bizim niyə ağlımıza gəlmirdi belə pomidor istehsal etmək?

Hələ o gün qonşuda idim. Uşağın nə bilim, beyninə haradan vermişdi, alma deyib ağlayırdı. Evdə də alma yox idi. Biz nə etdik uşağın anasıyla. Soyuducudan bir pomidor götürüb yuduq, alma kimi dilimləyib qoyduq uşağın qarşısına. Uşaq elə ləzzətlə yedi, bir kəlmə demədi ki, məni niyə aldadırsınız. Elə o an bu cür pomidor istehsalçılarını bir daha alqışladım. Bir alma istəyən uşağın ki səsini pomidorla kəsə bildik, bu, böyük tərəqqidir. Yəni alma bərklikdə, alma turşməzəlikdə, alma qədər qabığı qalın pomidor yetişdirmək, bu, kənd təsərrüfatında inqilabdır. Təbrik edirəm.

Düşündüm ki, bu həftəlik yazı planıma hökmən bu pomidorlarla bağlı yazı yazmağı salmalıyam. Çünki insanların hamısı bazar, marketlərdən həmin pomidorlardan alır, birdən məndən qabağa düşüb ya yazan, ya da redaksiyaya təşəkkür məktubu çatdıran olar. Niyə məndən qabağa düşən olmalıdır ki? Mən bu yeniliklərdən niyə ilk yazan olmayım ki? Axı özüm də o pomidorların həm keyfiyyətini, həm qiymətini, həm alma kimi doranmağını hamı kimi görmüşəm. Ona görə də yazdım. Yazdım ki, düzdür, bilməyən yoxdur, olsa əgər belə pomidordan onlar da alıb istifadə etsinlər. Etsinlər ki, bəlkə minlərin içindən biri qalxıb deyə ki, sən Allah, düz deyirsən?!

***Mətanət MƏMMƏDOVA***

# "Şuşa Azərbaycanın, Qarabağın gözüdür"



***"Bildiyimiz kimi, Şuşa 28 ildən çox düşmən tapdağı altında qalıb. Amma öz əzəmətini və vüqarını itirmədi. Şuşa təkcə Azərbaycanın deyil, Cənubi Qafqazın da mədəniyyət beşiyi olub, oranın konservatoriyası olub". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva bildirib.***

Onun sözlərinə görə, Şuşa Ulu Öndər Heydər Əliyevin Azərbaycana ilk hakimiyyəti dövründə də bərpa edilib, Azərbaycanın görkəmli şairi Molla Pənah Vafiqin məqbərəsi tikilib: "Ermənilər işğal dövründə Şuşadakı demək olar ki, bütün dini-tarixi abidələrimizi dağıtdılar, hətta Şuşanın adını belə dəyişmək istədilər. Lakin Şuşanın ruhunu sındıra bilmədilər. Müzəffər ordumuzun əsgərləri Şuşanı azad etdi, onu əsl sahiblərinə qaytardı. Ümumiyyətlə, Azərbaycanı Şuşasız təsəvvür etmək olmaz. İşğaldan azad edildikdən sonra ölkə başçısı mütəmadi olaraq Şuşada həyata keçirilən quruculuq işləri ilə yaxından maraqlanır, bir çox tikililərin açılışında iştirak edir, tarixi abidələrimizi ziyarət edir, məktəblərin, xəstəxanaların, yaşayış binalarının təməl daşını qoyur. Şuşa quruculuq-bərpa işlərindən sonra təkcə regionda deyil, bütün dünyada ən gözəl şəhərlərdən birinə çevriləcək. Azərbaycan Prezidenti müharibə bitdikdən sonra Şuşanı mədəniyyət paytaxtı elan edib. 2022-ci il Şuşa ili elan edildi. Şuşada müxtəlif tədbirlərin, festivalların keçirilməsi nəzərdə tutulub. Şuşanın 270 illiyi böyük təntənə ilə keçiriləcək. "Xarıbülbül" musiqi festivalı keçirilir. Burada xarici ölkənin yarışmaçıları da iştirak edəcəklər. Festivala xariçi qonaqların gəlməsi də gözlənilir. Bu festival dünyaya bir daha onu göstərəcək ki, bu ecaskar və müqəddəs şəhərin əsl sahibləri azərbaycanlılardır. Onlar da bu gözəlliklərin şahidi olurlar. Onlar da anlayırlar ki, Şuşa Azərbaycanın, Qarabağın gözüdür".

***Abutel İlhamqızı***



# Şuşada 10 may müraciətinin rəmzi mənası



TƏHLİL

***Ölkə rəhbərinin, cənab Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə mütəmadi səfərləri nəinki Azərbaycan vətəndaşlarının, elcə də bütün dünya ictimaiyyətinin diqqətindən yayınmır və hər kəsə bəllidir ki, bu səfərlərin hər biri səbəbsiz və mənasız deyil. Xüsusilə, Azərbaycan Prezidentinin Şuşaya səfərlərinin rəmzi mənaları daha böyükdür və bu, ölkə rəhbərinin hər səfərindəki çıxışında da öz təsdiqini tapır.***

Torpaqlarımız işğaldan azad edildikdən sonra Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin həmin ərazilərə səfərləri artıq ənənəvi hal alıb. Bu səfərlər zamanı ölkə rəhbəri ilə yanaşı, onunla bərabər Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da həmin əraziləri ziyarət etdiyinin şahidi oluruq. Əlbəttə ki, bu məqam işğaldan azad edilən ərazilərimizin bizim üçün, bütövlükdə Azərbaycan üçün nə qədər əhəmiyyətli olduğunu bir daha təsdiqləyir. Təsdiq edir ki, biz öz haqqımız, öz hüquqlarımız, öz torpaqlarımız uğrunda mübarizə aparmışıq və bu müqəddəs amal uğrunda apardığımız mübarizədə əldə etdiyimiz qələbə, xüsusilə də bu qələbə sayəsində işğaldan azad etdiyimiz ərazilərimiz bizim üçün olduqca əzizdir, qiymətlidir və biz bu torpaqların sahibi olaraq çiçəklənməsini də, tərəqqisini, inkişafını da təmin etmək uğrunda əzmlə çalışırıq.

Qeyd olunduğu kimi, ölkə rəhbərinin işğaldan azad edilmiş ərazilərimizə səfərlərinin hər biri səbəbsiz olmayıb, məramı, məğzi, mənası olub, lakin Müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın may ayının 10-da Qarabağa - Füzuli və Şuşa şəhərlərinə səfər etməsi və səfər çərçivəsində bir sıra tədbirlərdə iştirak etməsinin daha böyük rəmzi mənası var. Bu səfərin 10 may tarixinə, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü günü reallaşdırılması heç də təsadüfi deyildi. Həyatının böyük hissəsini Azərbaycan xalqına həsr edən, xalqımızın inkişafı, tərəqqisi, müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində misli görünməmiş işlər görən Ulu Öndərin anadan olduğu gün işğaldan azad edilən ərazilərə ölkə başçısının və onun xanımının səfəri əlbəttə ki, rəmzi məna daşıyırdı və Ümummilli Lderimizin başlatdığı işlərin bir daha uğurla nəticələndiyi təntənəsini, dahi rəhbərin yoluna, təməlini qoyduğu müqəddəs amala sadiqliyimizi, ehtiramımızı, bu yolda daim uğurlar əldə edəcəyimizə əminliyimizi özündə ehtiva edirdi.

Ümummilli Lider Heydər Əliyevin Şuşanı azad görmək arzusu artıq iki il ilə yaxındır ki, reallaşıb və bu, başda cənab Prezident İlham Əliyev, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyeva olmaqla, hər birimizi sevindirir. Ona görə ki, Şuşa şəhəri Ulu Öndərin hər zaman önəm verdiyi şəhər olub. Xatırladığımız kimi, Şuşa işğaldan azad edilən gün Müzəffər Ali Baş Komandanımız ata vəsiyyətini yerinə yetirdiyini bəyan etdi və məhz bu məqam deyilənləri, dahi rəhbərin Şuşa şəhərinə önəm verdiyini, bu şəhərin işğaldan azad edilməsi arzusunda olduğunu bir daha təsdiqləyir. Deməli, ölkə rəhbərinin məhz 10 may tarixində, Ulu Öndərin anadan olduğu gündə Şuşaya səfəri etməsinin rəmzi mənası hamıya bəllidir və hər kəs bilir ki, ölkə rəhbərimiz ata vəsiyyətini yerinə yetirdiyini, Şuşanın azad edildiyini qeyd edir və bəyan edir ki, əbədi sahibi olaraq bu torpaqların keşiyindəyik və bu bizim üçün müqəddəs amaldır. "Ulu Öndərin xatirəsinə öz ehtiramımı və Azərbaycan xalqının ehtiramını buradan ifadə etməli, bir daha deməli idim ki, biz bu torpaqlara, doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq", deyə cənab Prezident İlham Əliyev öz çıxışında bəyan edir ki, özünün və xalqının Ümummilli Lider Heydər Əliyevə ehtiramı hüdudsuzdur və biz bu torpaqları qoruyacaq, abadlaşdıracaq, burada əbədi yaşayacağıq və bu da Ulu Öndərin ruhunu şad edir.

İşğal olunmazdan əvvəl Şuşanın inkişafında Ümummilli Liderimizin böyük xidmətləri olduğunu hamımız yaxşı bilirik. Hələ o zamanlar bu şəhərdə quruculuq-abadlıq işlərində dahi rəhbərimizin xidmətləri danılmazdır və o, Şuşanın Azərbaycan üçün, ölkəmizin mədəniyyətinin təmsil edilməsi üçün necə əhəmiyyətli olduğunu dəfələrlə bəyan etməsi də yaddaşlardan silnən deyil və bir sözlə, onun Şuşaya verdiyi önəm bütün bunlarla öz təsdiqini tapır. Təsadüfi deyildi ki, Ulu Öndər hakimiyyətə qayıtdıqdan sonra işğal altında olan torpaqlarımızın, o cümlədən Şuşanın azad olunması üçün çox çalışdı. "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" deyən Heydər Əliyevin siyasətində ən başlıca məqam ölkəmizin ərazi bütövlüyünün bərpa olunması idi, hansıki məhz bu siyasəti uğurla davam etdirən, torpaqlarımızı işğaldan azad edən, Müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyev oldu və onun ata vəsiyyətini yerinə yetirməsi ilə böyük şəxsiyyət Heydər Əliyevin Qarabağın işğaldan azad olunması arzusu reallaşdı. Məhz cənab Prezident İlham Əliyev 10 may tarixində, Ulu Öndər Heydər Əliyevin anadan olduğu gündə Şuşaya səfər etməklə bu arzunun reallaşdırıldığı ilə bağlı həm özünün, həm də bütövlükdə Azərbaycan xalqının keçirdiyi sevinc, fərəh və qürur hissini, eləcə də dahi rəhbərə ehtiramını, onun yoluna, təməlini qoyduğu düzgün, məqsədyönlü, uzaqgörən, müdrik siyasətə sadiqliyimizi bəyan etdi. Anadan olmasının 99-cu ildönümündə cənab Prezident İlham Əliyevin ilk öncə Ümummilli Liderin məzarını ziyarət etməsi və ondan sonra Qarabağa, Şuşaya doğru istiqamətlənməsində əlbəttə ki, rəmzi məna vardı və bu həm də ondan ibarət idi ki, Şuşa azaddır və Ulu Öndərin anadan olduğu gündə O Şuşadadırsa, deməli, atasının, Heydər Əliyevin ruhu şaddır.

***İnam Hacıyev***

# "Xarıbülbül" musiqi festivalının keçirilməsi tarixi əhəmiyyət kəsb edir



***"Mayın 12-də Şuşada V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı öz işinə başlayıb. Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə elan edilən "Şuşa İli" çərçivəsində keçirilən festival Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Şuşa Şəhəri Dövlət Qoruğu tərəfindən təşkil olunub.***




Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva festivalın açılışında iştirak ediblər. Bu festivalın özəlliyi ondan ibarətdir ki, bir sıra xarici ölkələrdən müxtəlif folklor üslublarında çıxış edən musiqiçilər, rəqs kollektivləri, həmçinin Azərbaycanın müxtəlif regionlarından folklor kollektivləri qatılıblar". SİA xəbər verir ki, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

Deputat bildirib ki, ilk dəfə 1989-cu ildə keçirilmiş və Seyid Şuşinskinin 100 illik yubileyinə həsr edilmiş festival İkinci Qarabağ müharibəsində qazanılmış parlaq zəfər nəticəsində 30 illik fasilədən sonra - ötən ilin 12-13 may tarixlərində Şuşada Cıdır düzündə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə yenidən keçirilib. Hələ 2020-ci il noyabrın 8-də Prezident İlham Əliyev Şuşanın azad olunması münasibətilə xalqa müraciətində qeyd etmişdi ki, Qarabağın tacı olan bu şəhər tezliklə dirçələcək və özünün əvvəlki şöhrətini qaytaracaq. Ötənilki festivalın açılış mərasimində isə dövlətimizin başçısı "Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" festivalı Şuşada hər il keçiriləcək", - demişdi. V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının keçirilməsi Prezidentimizin həmin fikirlərinin əyani təsdiqidir.

Millət vəkilinin sözlərinə görə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada "Xarıbülbül" musiqi festivalının keçirilməsi tarixi əhəmiyyət kəsb edir. "Xarıbülbül" musiqi festivalının təşkili Qarabağın tarixi simasının, Şuşanın mədəniyyət mərkəzi statusunun bərpasını təcəssüm etdirir. Çox sevindirici haldır ki, hər il Şuşada "Xarıbülbül" musiqi festivalı keçiriləcək. Eləcə də, dövlətimiz Şuşa şəhərini yenidən bərpa edir, dirçəldir, onun əvvəlki şöhrətinin qaytarılması üçün yeni dövr başlayır. Bu dövr milli qürur, milli ləyaqət və inkişaf, dirçəliş dövrüdür. Şuşa Azərbaycan xalqının milli sərvətidir. Dövlətimizin başçısı tərəfindən Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi bunu bir daha sübut edir. Ermənilər nə qədər çalışsalar da, Şuşadan Azərbaycan ruhunu silə bilməyiblər. Uzun illərdən sonra bərpa edilən festival sözün əsl mənasında milli birlik, qürur, zəfər, ləyaqət bayramına çevrildi. Bizlərə belə bir qürurlu günlər yaşatdığı üçün Müzəffər Ali Baş Komandanımız başda olmaqla qəhrəman hərbçilərimizə borcluyuq.

"V Xarıbülbül" musiqi festivalının özəlliyi ondan ibarətdir ki, bu tədbirdə müxtəlif ölkələrin nümayəndələri iştirak edir. Onların da proqramları festivalda təqdim olunur. Ötənilki festivalda ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri çıxış etmişdilər. 44 günlük müharibə ərzində də torpaqlarımızın işğaldan azad olunması üçün bütün etnik və dini icmaların nümayəndələri vahid amal, vahid bayraq altında birləşərək çiyin-çiyinə döyüşməklə ərazi bütövlüyümüz bərpa olundu. Bu fakt Azərbaycanda əsrlərlə mövcud olmuş tolerant mühitin, multikulturalizm ənənələrinin nə dərəcədə qorunmasının və inkişaf etməsinin göstəricisidir. V Festivalda digər ölkələrin nümayəndələrinin iştirakı isə Şuşa şəhərinin böyük bir regionun mədəniyyət mərkəzinə çevrilməsinin ifadəsidir".

# Ermənistandakı aksiyalar tükənir

## *Revanşistlər istədiklərinə nail ola bilmirlər*





***“Görünür, sözdə "müqavimət hərəkatı" yaradan barışmaz sabiqlərin cəhdləri son vaxtlar sönməyə doğru gedir. Xeyr, Koçaryanın, Sarqsyanın, Vanetsyanın və daşnakların ətrafında hələ də itaətsizlik aksiyalarından nə isə qazana biləcəkləri ilə bağlı bəzi illüziyalara qapılanlar var, amma hərəkatın tükənməyə başlaması göz önündədir". Bu haqda armenianreport saytının analitik bölməsində yazılıb.***




Buradan da aydın görünür ki, revanşistlərin ölkədə hakimiyyət dəyişikliyi uğurunda başlatdıqları itaətsizlik cəhdləri nəticə vermir. O cümlədən, görünən budur ki, artıq Koçaryanın, Sarqsyanın və daşnakların lideri Saqatelyanın, eləcə də digər müxalifətçi - Vanetsyanın tapşırıqlarına əsasən onların tərəfdarları insanların evlərinə və mobil telefonlarına zəng edərək müəyyən olunmuş miqdarda ödənişlər etmək şərti ilə aksiyalara qatılmaq təkliflərini irəli sürürlər. Bu da sübut edir ki, artıq erməni ictimaiyyətinin əsas kəsimi qaniçən sabiqlərin yenidən qan-qadalar törətmək istəklərini rədd edirlər.

Məhz bu yöndən çıxış edən yazıda da qeyd edilir ki, artıq Koçaryan başda olmaqla erməni müxalifətinin liderləri öz həyatlarındakı əsas döyüşlərini uduzduqlarını anlamağa başlayıblar. SİTAT: ”Onlar nəinki bütün erməni xalqını mobilləşdirə bilmədilər, heç olmasa onların yarısını özlərinə tərəf çəkməyi bacarmadılar, hansı ki, elə həmin say də Paşinyanı devirməyə yetərdi. Nümayişlər və avtoyürüşlər kimi keçirilən aksiyalara baxarkən nəzərə ilk gələn bu olur ki, müxalifət praktiki olaraq bütün resurslarını sərf edib və yaxın günlərdə etiraz hərəkatı birdəfəlik boğulacaq. Onların məğlubiyyətində əsas skripkanı heç də Paşinyana dəstək göstərən kütləvi xalq amili olmadı, çünki mövcud hakimiyyəti yalnız ən tənbəl insan söymür. Yox, sabiqlərin iqtidarlarını bərpa etməsi halında xalq keçmişə, yaxud qeyri-müəyyən gələcəyə qayıtmaq istəmir, xalq yeni qanlı müharibə istəmir, xalq sadəcə normal yaşamaq və inkişaf etmək istəyir. Pis-yaxşı, bunu hakimiyyət zəmanət verir, amma müxalifət həmin zəmanəti vermir. Buna görə də onun (müxalifətin) sıralarında qıcıqlandırıcı uğultu daha aydın görünməyə başlayır. Və bu, ona qaba, sağlam məntiqə söykənməyən fəaliyyət göstərməsinə mane olmur”.

Erməni saytı yazır ki, mayın 12-də müqavimət hərəkatının bir qrup nümayəndəsi Avropa İttifaqının ofisi qarşısında etiraz aksiyası keçiriblər. Onların əllərində etirazçılara qarşı zor tətbiqi edən polislərin şəkilləri var idi. ”Biz anlamaq istəyirik ki, Aİ-nin nümayəndələri polisin güc tətbiq etməsindən razı qalıblar? Onlar Ermənistanda islahatların aparılması müqabilində ayırdıqları vəsaitlərinə qarşılıq olaraq güc tətbiqini məqsədəmüvafiq hesab edirlərmi? Bizim əllərimizdə onların dinc aksiya keçirən vətəndaşlara qarşı güc işlətmələrinin fotoları var. Ümid edirik ki, hörmətli səfir bu şəkilləri görür. Lakin biz onları yenidən gətirdik ki, bir daha burada baş verənləri xatırladaq. Biz anlamaq istəyirik ki, onun bu məsələ ilə bağlı nə isə deyəcəyi var, ya yoxdur? Biz istəyirik ki, o nə isə desin”, aksiya iştirakçılarından biri olan Lilit Beqlaryan deyib.



Məhz revanşist erməni qadınını bu sözlərini hədəfə alan armenianreport əlavə edir ki, əslində onun Aİ-nin ofisinə irad bildirməsinin özü axmaqlıqdır, belə ki, polis ölkə hakimiyyəti ilə razılaşdırılmamış aksiyanı dağıdıb. SİTAT: ”Əgər onlar iradlarını hakimiyyətə, yada parlamentə qarşı yönəltsəydilər bunu harada isə anlamaq olardı. Bəs Aİ-nin buraya nə aidiyyatı var? Məgər polislərə əmri avropalılar verib? Yoxsa Aİ-nin qanunları Ermənistanın qanunlarından üstündür? Bəlkə mövcud hakimiyyət Brüsselin yetişdirməsidir? Əlbəttə ki, yox. Burada anlamaq lazımdır ki, liderləri Koçaryan və Sarqsyan olan müqavimət hərəkatı Ermənistanın rusiyayönlü gücləri vasitəsi ilə yaradılıb. Kifayət qədər aydındır ki, hədəf avropalı, bəlkə də daha geniş - qərb demokratik institutlarıdır. Guya ki, polisin özbaşınalığına etina etməyən Qərb və Aİ Ermənistanın nəyinə gərəkdir?”.

Erməni nəşri iddia edir ki, müqavimət hərəkatı Rusiyanın Ermənistandakı 5-ci kolonudur və onlar unudurlar ki, əgər həqiqətən də polis zorakılığı baş versə belə, bu məsələ Aİ-nin fakt araşdırıcı qurumlarına aid deyil. Həmçinin keçmişdə hakimiyyətdə olan hazırkı müxalifətçilər dəfələrlə sərt və amansız şəkildə etiraz aksiyalarını dağıdırdılar. SİTAT: ”Amma onda Rusiyanın səfirliyinə qarşı etirazlı iddialar qaldırmaq kimsənin ağlına belə gəlmirdi. Özü də həmin məsələyə sayıq nəzərlərlə baxsaq bunun üçün əsasın da olduğunu demək olar, çünki ortada Koçaryanla Saqrsyanın Moskvanın marionetləri olmaları faktları mövcuddur. Lakin sonuncu heç cür mövcud hakimiyyəti danışıqlar prosesindən çıxdaş edə bilmir ki, daha sonra İrəvana və Bakıya qarşı təsir rıçaqlarını işə salsın. Məhz buna görə son vaxtlar sabiqlərin nəzarətlərində olan KİV-lərində və teleqram kanallarında antiqərb məqalələri yağışdan çıxan göbələklər kimi artır. Hədəf isə birtərəflidir - Avropa və ABŞ Paşinyanı ”artsxadan” əl çəkməyə və Bakının şərtləri ilə razı olmağa məcbur edir”.

Armenianreport-un müəllifi iddia edir ki, əslinə qalanda həm Rusiya, həm də Qərb eyni maraqlarla, lakin müxtəlif istiqamətlərdən hərəkətə keçirlər. ”Məgər Moksva ”artsax” məsələsində Paşinyana təzyiq göstərmirmi? Əlbəttə göstərir. Lakin rusiyayönümlü müxalifət bu barədə susmağa üstünlük verir və Kremlin tapşırıqlarını yerinə yetirir, erməni cəmiyyətində antiqərb ruhu yaratmağa çalışır. Özünü aldatmaq olar, ancaq bütün xalqı aldatmaq mümkün deyil...”, adıçəkilən erməni saytı sonda yazıb.

***Rövşən RƏSULOV***

# “Sülh prosesinin alternativi yoxdur”



***“Ermənistanda hakimiyyət əleyhinə nümayişlər demək olar ki, hər gün keçirilir. İrəvanın əsas küçə və prospektlərində toplaşan insanların siyasi mövqeyi, şüarları bundan ibarətdir ki, Nikol Paşinyan və onun rəhbərlik etdiyi hökumət istefa verməlidir”. Bunu SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov deyib.***

Onun sözlərinə görə, ikinci Qarabağ müharibəsində olan məğlubiyyəti Paşinyanın siyasi xətti ilə əlaqələndirirlər və onu xain və satqın adlandırırlar: ”Qeyd etməliyik ki, ”Qarabağ klanı” xüsusilə aktivləşib, Brüssel sülh gündəliyinə rəğmən ”Qarabağ klanı” müxtəlif güclərin dəstəyi ilə



sülh prosesini pozamağa da cəhdlər göstərirlər. Bu, tamamilə qəbul olunmazdır, hətta Azərbaycanın xarici işlər naziri də Ermənistanın daxilində baş verən neqativ ab-havaya münasibət bildirib. Bu, ona işarədir ki, rəsmi Bakı hər şeyi diqqətlə izləyir və irəli sürülən yersiz arqumentlər aradan qaldırılmalıdır, sülh prosesinin alternativi yoxdur və Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməlidir. Həm sərhədlərarası komissiyanın çağırılması və təhlükəsizlik zəmanətlərin verilməsi mütləq xarakter daşıyır. Digər tərəfdən Ermənistan-Azərbaycan sərhədində də biz atəşkəs rejiminin pozulmasını müşahidə edirik. Azərbaycanın mövqeləri aramsız olaraq atəşə tutulur. Bu da sülhə və təhlükəsizlik mühütünə böyük zərbədir. Azərbaycan tərəfi Ermənistanla sülh müqaviləsinin imzalanmasının, sərhədlərin delmitasiya olmasının, iqtisadi nəqliyyat əlaqələrinin bərpa olunmasının tərəfdarıdır. Lakin Ermənistanda revanşistlər, daşnaqlar, radikal kəsim hakimiyyətə can atır. Onların hakimiyyətə gəlməsi böyük ölçüdə sülhə mənfi təsir göstərəcək”.

İ.Hüseynov onu da bildirdi ki, Ermənistanda ”Qarabağ klanı”nın heç bir sosial bazası yoxdur, buna ən bariz nümunə Ermənistanda keçən il iyun ayında keçirilmiş növbədənkənar parlament seçkiləridir: ”Müharibədə məğlubiyyətin baş verməsinə və Ermənistanın baş nazirinin kapitulyasiya aktının imzalanmasına baxmayaraq, insanlar müharibəyə ”yox” dedi, ”Qarabağ klanı”na ”yox” dedi və Nikol Paşinyana tərəfdar çıxdılar. Buna görə də, Ermənistada müxalif kəsimin sosial bazası və elektoratı yoxdur, yalnız populizim üzərində hakimiyyətə gələrək düşmənçiliyi təşviq etmək məkrli niyyətlərdən xəbər verir. Ermənistanda müxalifət də yaxşı başa düşür ki, Türkiyə ilə Azərbaycanla müharibə aparmaq iqtidarında deyillər, bu xüsusda 70 erməni ziyalının müxalifəti tənqid edən çağırışlarla çıxış etməsi də bunu göstərir ki, Ermənistanın daxilində onlara qarşı bir qəbuledilməz mövqe vardır. Uzun illər ərzində Ermənistanın iqtisadi tənəzzülündə talançılıqda, korrupsiya hallarında ən öndə gedən simalar Koçaryan və Sarkisyan olmuşdur. Ona görə də, erməni xalqı yalnız Azərbaycanla Türkiyə ilə münasibətlərin normallaşmasına çalışmaqla siyasi iqtisadi və digər dividentlər qazana bilərlər. Qarabağda olan ermənilərin bir alət kimi istifadə olunması da yolverilməzdir. Buna görə də, Brüssel sülh formatına uyğun olaraq məsələlər tənzimlənməli və eyni zamanda, Rusiyanın vasitəçiliyi ilə imzalanmış 2020-ci ilin 10 noyabr və 2021-ci ilin 11 yanvar və 26 noyabr bəyanatları emplementasiya olunmalıdır”.

***Gülyana***

Esse

# Xarıbülbülün monoloqu

***Xalqımın dilində bir kəlam var: kiminin əvvəli, kiminin sonu. Mənim əvvəlim qəm, kədər, ələm olub. Nakam bir məhəbbət yaşamışam. Küləyin qısqanclığı ilə sevdiyimi sinəmdəki tikanımla məhv etmişəm. Külək çəkə bilmədi bizim bir-birimizə sevdamızı. Çırpdı bülbülü tikanlarım üzərinə. Ölümünə fərman verdi. Bülbülümün al qanı göz yaşlarıma qarışdı. Mən bu rəngləri haradan almışam, bilirsən? O qarışımdan. Köksümdəki əlvan rənglərə bülbülümün də rəngləri qarışıb. Sevdiyimi köksümdəcə dəfn etmişəm. O vaxt, bu vaxt mən həm güləm, həm bülbüləm. Qarabağın həm ətri, həm nəğməsiyəm...***



Qarabağın baş tacı Şuşanın çiçəyiyəm. Bu dağların həm qızı, həm oğluyam. Şuşamın qırmızı köynəkli, yaşıl ətəklisiyəm. Qarabağın ağ at üstə mərdiyəm, igidiyəm. Həm ətriyəm bu yurdun, həm ərəni. Nə dünyada oxşarım var, nə bənzərim. Nə də mənim taleyimi yaşayan biri.

Deyirdim bəs bülbülümlə dərdim bitdi. Nə etməli, qismət bu imiş. Köksümdəki bülbülümlə yaşayaram bundan sonra. Bir ömürü, nə etməli elə bu cür adlaram. Ta bilmədim nələr, nələr var qarşıda. Bilmədim ki, küləkdən də qısqancı var bu ellərin. Gözləri ac, qəlbi bomboş düşməni var Qarabağın. Bilməzdim ki, köksümdəki bülbül nədir, arxamdakı dağlar boyda irəlidə dərdim, sərim olacaqmış. Düz otuz il Qarabağa bahar fəsli gəlməyəcəkmiş. Mənim son baharın 90-larda qalacaqmış...

Baharsız xarıbülbül olarmı? Əsla olmaz. Nə baharsız, nə Qarabağsız xarıbülbül olardı? Mənim torpaqdan başımı qaldıran bu ellərin insanlarının nəfəsiydi. Gözlərimin önündəcə evlərindən qovuldular. Zorla, silahın burnunda yurdlarını tərk etdilər. Gözlərimin qarşısında övladları şəhid oldu. 90-larda mən qan içdim su yerinə. Gözlərimin qarşısında minarətək evlər çökdü. Qapıların qıfılları könül evimi bağladı. Kimsəsiz həyət-bacalar, ot basmış yol, cığırlar, hər Novruzda yol gözləyən qəbirlər ürəyimə dağ çəkdi. Hər kəs getdi, burada qalan bir torpaq, bir mən oldum. Nə isə... Gün gəldi ki, baharım payız oldu. Ha istədim torpaqdan boylanmağa, gördüm bu ellərdə günəş yoxdur, boylana bilmədim, bir insan nəfəsini duymadım, niyə boylanardım. Düz otuz il torpağın altını özümə məskən seçdim. Hərdən ayaq səslərini duyurdum. Bu səslər düşmənin ayaq səsləriydi. Duyduqca daha dərinlərə kök atırdım. Onların nə üzünü görmək, nə səsini duymaq istəyirdim.

Çəkilmişdim öz dünyama. O dünyada Qarabağlı günlərimlə baş-başaydım. Ömrümün baharı da vardı, qışı da vardı. Baharda boylanırdım günəşə sarı, doğma üzlər görürdüm. Doğma səslər eşidirdim, doğma əllər görürdüm. Dərir məni, evlərində əzizləyirdilər. Süfrələri, otaqları bəzəyirdim. Gözəlliyimlə fəxr edir, hər dəfə məndən danışanda həm kədərlənir, həm də qürurlanırdım: sevgimə sadiqliyimlə, bülbülümlə... bu dünyamda düz otuz il yaşadım. Elə bil ki, heç mən adda bir gül yoxmuş. Görünmədim yad gözlərə. Gözlərimi dikdim uzun yollara. Bir gün bu yollardan gələn tanış addımları duyacaqdım. Bu yollardan doğmalarımın səsləri eşidiləcəkdi. Onlar bu yurda qayıdacaqdılar. Mən o zaman bu torpaqdan onlara sarı boylanacaqdım. Çəkildim öz güşəmə, səssizcə, xəlvəti. Görünmədin yağı gözlərə ki, kökümü kəsərlər, mahnılarımız, musiqi alətlərimiz, xalçalarımız, mətbəximiz kimi məni də mənimsəyərlər, ”xarıbülbül bizimdir”,- deyərlər.

İllər ötdü. Nə yaxşı ki, dağlar, daşlar, dərələr bu yerlərdən günəşi də, baharı da qovmuşdu. Bu da bir təsəlliydi yaralı qəlbimə. Öz güşəmdə gözləməyə təsəlliydi. Gözləyirdim, ürəyimdə təşnəm ilə, yurddaşımın səsinə, nəfəsinə həsrət ilə gözləyirdim. Bilirdim ki, bir gün onlar gələcəklər, məni yenidən əzizləyəcəklər...

İki il əvvəl, payız lap yenicə bu ellərin onsuz da payız ömrünə öz vaxtı ilə gəlmişdi. Cəmi 7 gündü gəlmişdi. 7 rəqəminin möcüzəsini eşitmişdim, görməmişdim. Payızın 7-ci günündəcə mən o doğma nəfəsləri hiss etdim. Bağrımdakı ayaq səsləri doğmaydı, çox doğma. 30 ildən sonra mən ana dilimdə sözlər duydum. Vətən, Torpaq, Bayraq sözlərini eşitdim. Dağlı bağrım torpağın altında dağa döndü. Qayıtmışdılar onlar, tam yəqin ki, qayıtmışlar. Payızıma bircə anda bahar gəldi. Gözlərimdə şimşək çaxdı, ələndi yağış gözümdən. Axı mənim doğmam gəlmişdi.

Qarabağın qərinəlik sükutunu dağıdan ordum gəlmişdi. Harayıma 90-larda Qarabağım qarabəxtli günlərində şəhid olan ataların oğulları gəlmişdi. Sərkərdəsi ata vəsiyyətini yerinə yetirməkçün gələn oğul idi. Hər tərəfdə silah səsi qulaqları batırırdı. Batırdıqca oyanırdım. Bu səslər mənə xoş gəlirdi. Təşnəsilə yanıb kül olduğum doğma səslər burada ocaqları yandırmağa gəlmişdilər. Yağıları bu torpaqdan əbədiyyən qovmağa, bu əzəli yurdlara yeni həyat verməyə gəlmişdilər. Düz 44 gün bağrım üstdən nə ağırlıqda tanklar keçdi, dedim ki, bəs bülbülüm geri dönüb. Düz 44 gün su yerinə yenə qan içdim. Dedim ki, bəs bülbülümün qanı axır sinəm üstə. Yüzlərlə oğul can verdi torpaq üstə. Aldım qoynuma, ağı dedim, ağladım. Bir gözümdə ələm, qəm, o birində vüsal vardı. Bilirdim ki, qan axmadan Qarabağın qara bəxtini ağ rəng süsləyə bilməzdi. Bu ədalətsiz dünyanın haqsızları Qarabağçün susacaqdı. Bilirdim ki, bu torpaqlar müharibə olmadan qayıtmayacaqdı.

Nə qanlar, qadalar gördüm 44 gündə. Şəhidimi, qazimi qucaqladım. Onlara qara sevdamdan danışdım. Şəhidimə hələ neçə il əvvəl yarsız qaldığımı söyləməklə təsəlli oldum. Ana oldum, laylay çaldım hər mərdimə, igidimə:

Əzizinəm ər ölər,
İgid ölər, ər ölər.
Vətən, torpaq, el üçün
Yüzlər yox, minlər ölər.

Heyranam Qarabağa,
Qara yox, bəxti ağa.
Qurbanam igidimin
Yağıya çəkdiyi dağa.

Əzizinəm ağlaram,
Mən sinəmi dağlaram.
Qarabağda qürurdan
Şalımı al bağlaram.

Yurd yerlərim bir-bir azad olduqca, dalğalanan bayrağımı da gördüm. 30 il həsrət qaldığım o üç rəng-mavi, qırmızı, yaşıl gözlərimi oxşadı, bayrağım rəngindən rəng verdi mənə. İlhamlandım, torpaq altından boylandım. Gördüm ki, şəhidim payızımı bahar edib. Qarabağa al qanıyla 30 ilin suyun verib. Şəhidlərim həyatını yerə verib, əbədiyyət məkanına-göylərə ucalıb. Qarabağın 30 illik payızını yaz edib. Kədərim başdan aşsa da, fərəhləndim. ”Oğul torpaq üçün doğulur”,- dedim. Qoy torpaqlar yağıda qalmasın, axı o namus, ardı, şərəfdi. Bu şərəfçün şəhid olmaq ölmək deyil, yaşamaqdır.

Payızıma yaz gəldi. Dörd bir yanım çiçəklədi. Qarabağın azad səsi nəğmə olub qulağımda çingildədi. Payızdaca çiçək açdım. 30 il sonra torpaqdan boy qaldırıb Qarabağa doğan günəşə baxdım. Minlərlə şəhidimin rəmzinə çevrildim. Ölkəm məndən don biçib əyin-başını bəzədi. Sinə üstə gəzdirdilər məni, əzizləyib, oxşadılar. Adıma festival qurdular. 30 illik hicranıma vüsal çələngi taxdılar. Rəqs elədim festivalda doğma dildə mahnılarla, sevincim qalxdı dağlara, dumanı yardı, ”Şuşa azaddır” hayqırdı. Cıdır düzündə adım düşmədi dillərdən. Qürur duydum, fəxr etdim ki, bu millətə aidəm.

Budur, iki gündür yenə məni deyib bu dəfə tək ölkəm yox, dünyadan da qonaqlar gəlib hüsnümə. Mən ta artıq beynəlxalq bir festivalın adıyam. Azad Şuşanın adını bütün dünyaya tanıdanam. Hər kəs məni görmək, hüsnümə tamaşa etməyə gəlib. Mənim haqqımda rəvayətləri dinləməyə, öyrəmnəyə gəliblər. İki ildir sonsuz sevinc içindəyəm. Novrağımçün orduma, şəhidimə, qazimə, sərkərdəmə minnətdaram. Var olsun belə Vətən, var olsun müzəffər sərkərdə, əyilməz, qüdrətli əsgər. Qoy ətrim onların ömrünə hər zaman bahar təravəti çiləsin.

Həqiqətən də kiminin əvvəli, kiminin sonu. Nə xoşbəxt bir sonum varmış...

***Mətanət MƏMMƏDOVA***

# Kabab tüstüsündə boğulan şəhər



***Havanın çirklənməsi əhalinin artması, şəhərlərin böyüməsi və sənayenin inkişafı ilə artan sürətlə davam edir. Nəqliyyat vasitələrinin artması şəhər mərkəzlərində havanın keyfiyyətinin pisləşməsinə səbəb olur.***



Məlumdur ki, atmosferi çirkləndirən maddələrin ətraf mühitə və insan sağlamlığına təsiri zamandan, məkandan, təsir müddətindən, konsentrasiyadan və digər xüsusiyyətlərdən asılıdır. Havanın çirklənməsi ürək və ağciyər xəstəliklərindən ölüm nisbətini artırarkən, bu xəstəliklərə görə xəstəxanalara müraciətləri də artırır.



Həmçinin, havanın çirklənməsi xüsusilə uşaqların ağciyər inkişafına mənfi təsir göstərir və çirklənmənin intensiv olduğu ərazilərdə astma və



xroniki obstruktiv ağciyər xəstəliyi kimi xroniki tənəffüs yolu xəstəliklərinin yayılmasını artırır.

**Hava çirkləndirici maddələr:**
*Karbon monoksit (CO),*
*Azot dioksidi ($NO_2$),*
*Kükürd dioksidi ($SO_2$),*
*Ozon ($O_3$),*
*Partikül maddələr (PM),*
*Qurğuşun (Pb)*

Soba və qızdırıcılarda yanacaq kimi odun, kömür, mazut və təbii qazdan istifadə olunur. Bu yanacaqlar soba və qızdırıcılarda yandırıldıqda, bacalardan atılan dəm qazı (CO), kükürd qazı ($SO_2$), azot oksidləri ($NO_x$) və hissəciklər havanı çirkləndirir.

Qeyd edək ki, dünyanın ən çirkli havası olan ölkələri də açıqlanıb. Dünyanın 117 ölkəsi və 6 min 475 şəhərinin hava çirkliliyi dəyərləri təhlil edilir. Türkiyənin iki şəhəri Avropanın ən çirkli havası olan beş şəhəri sırasındadır. Dünyanın ən çirkli havası olan şəhərləri sizə təqdim edirik.

**Havası ən çox çirkli olan ölkələr:**
*Banqladeş*
*Çad*
*Pakistan*
*Tacikistan*
*Hindistan*
*Oman*
*Qırğızıstan*
*Bəhreyn*

2016- ci ildə Ümumdünya Səhiyyə Təşkilatı dünya ölkələrində ətraf mühitin çirklənməsi ilə bağlı yeni hesabat yayımlayıb. Hesabatda dünya əhalisinin 92%-nin havanın çirkləndiyi bölgələrdə yaşadığını müəyyən edib. Ələt qəsəbəsi, Neftçala və Ağcabədi rayonları yerləşən bölgələrdə havanın çox çirkləndiyi və 1 kub metr havada 26-35 mikroqram zərərli maddənin olduğu məlum olub. Naxçıvanın Ermənistanla sərhəd boyu əraziləri, Qarabağ, Qazax-Ağstafa-Goranboy, Şəki-Zaqatala və Quba-Qusar bölgəsi Azərbaycanda havanın ən təmiz olduğu (hər 1 kubmetr havaya 16-25 mikroqram zərərli maddə) regionlarıdır.

Bildiyimiz kimi, son zamanlar demək olar ki, bütün yaşayış binalarının arxası, önü və kənarı kababxanalarla doludur. Bəs, bu obyektlərdən çıxan tüstülər ekologiyamıza, insan sağlamlığına və havaya necə təsir edir? SİA məsələ ilə bağlı araşdırma apararaq ekoloq və qida mütəxəssislərinin fikirlərini öyrənib.

**Ekoloq-Jurnalistlər Birliyinin sədri Cəmşid Quliyev:** "Əlbəttə, istənilən tüstü atmosferi çirkləndirir. Biz tüstü ilə deyil, oksigenlə nəfəs alan canlılarıq. Yalnız insanlar deyil, əksər canlılar və bitkilər karbon qazı ilə tənəffüs etsələr də, havanın çirkli olması onlar üçün də xoş deyil. Həmçinin, bu onların sağlamlığı üçün də uyğun deyil.

Biz ilk növbədə insanları düşünməliyik.



Çünki insanların tənəffüsü birbaşa oksigenlə əlaqəlidir və istənilən bir tüstü atmosferi çirkləndirərək onların nəfəs almasını çətinləşdirir. Bu, hələ sağlam insanlara aiddir.

Kabab tüstüsünün bu cür tənəffüsə və atmosfer çirklənməsinə zərəri var. Lakin bu zərər olmasa belə, bu, etik bir davranış deyil. İnsanların sıx yaşadığı yerlərdə isə heç düzgün deyil. Çünki bu tüstü heç də hamıya xoş deyil. Ət manyakları var və onlar ətsiz yaşayışı təsəvvür edə bilmirlər. Bu, o insanlar üçün ən ləziz yeməkdir. Lakin elə insanlar var ki, ətə qida gözündə baxmır. Ölkəmizdə minlərlə vegeterian insan var. Kabab tüstüsü onlar üçün nəinki xoş deyil, həm də iyrənc bir qoxudur. Bu amillər düşünməyən adamı insan adlandıra bilmərəm. Bu, çox böyük bir mədəniyyətsizlikdir. İnsanlar bilməlidir ki, bu, o qədər də yaxşı bir iş deyil".



**Qida üzrə baş mütəxəssis Ağa Salamov:** "İctimai iaşə müəssisələrində havaya atılan tüstülər (kababların və yaxud zavodların tüstüsü olsun) ekoloji cəhətdən qəbul olunmazdır. Həmçinin, indi müasir texnologiyalara görə sobalar var.

Havalandırma sistemləri müasir texnologiyalara cavab verməlidir və bu, birmənalı olaraq, hətta dövlət tərəfindən də verilən bir qərardır ki, bütün ictimai iaşə müəssisələrində havalandırma sistemi tüstünü dumana çevirib yəni, boğucu olmalıdır, tüstünü boğmalıdır, dumana çevirib sonra havaya buraxmalıdır. Yəni tüstünü birbaşa havaya buraxmaq olmaz. Bu, həm də ekoloji tərəfdən yolverilməzdir. Çünki ekologiyanın korlanması və havaya zəhərli qazların atılması deməkdir ki, bunu da biz yağan yağışlarda hiss edirik. Yəni, təkcə burada manqalların havaya atdığı tüstülərdən söhbət getmir. Burada zavodlar, fabriklər var ki, havaya tüstü buraxırlar.

Amma təəssüf ki, bəzən arxa küçələrdə, gözdən yayınan yerlərdə, ən çox da Yasamal ərazisində bu hallara rast gəlinir. Küçədə, açıq havada manqalların qoyulması, yəni, kimin harda gəldi kabab çəkməsi düzgün bir şey deyil. Mən bunu meşə yanğını ilə bərabər tuturam. Meşə yananda da havaya zəhərli qazlar atılır, manqalda da.

Ən yaxşı halda həmin müəssisələr havalandırma sistemi ilə təmin olunmalı və həmin manqallarda kababları bişirməlidir. Bu dövlətin qanuna da ziddir. Piknikdə 1-2 dəfə bunu etmək böyük problem deyil. Amma bu halların sıx-sıx təkrarlanması birbaşa ekologiyaya zərbədir".



**Təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev:** "İnsan sağlamlığını formalaşdıran əsas amillərdən biri də ekoloji faktordur. Lakin bu gün şəhərin elə bir yeri yoxdur ki, orada tüstüsü ərşə qalxan kafe-restoran olmasın. Nəinki kafe-restoran, hətta şadlıq saraylarının da üzərini tüstü buludları alır. Bu, həm ekoloji cəhətdən, həm də əhalinin sağlamlığı baxımından ciddi təhlükə yaradır.

Nəzərə alsaq ki, yay fəsili gəlir, bir tərəfdən kabab tüstüsü, digər tərəfdən isti hava insanlarda ciddi diskonfort yaradacaq. Həmçinin, bu tüstü vasitəsilə havaya kanserogen zərərli qaz birləşmələrinin də buraxılması sağlamlıq və ekoloji problemlərinə gətirib çıxara bilər. Bu məsələ ilə bağlı aidiyyatı üzrə qurumlar reydlər, monitorinqlər keçirməli və havaya zərərli tullantıların atılmasının qarşısını almalıdırlar. Tüstü bacalarına müvafiq təmizləyici qurğu və filtrlərin yerləşdirilməsinə ciddi nəzarət olunmalıdır. Həmçinin, bu işdə vətəndaş cəmiyyəti institutları da Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları ilə birlikdə maarifləndirici reydlərdə iştirak etməlidir.

***Ayşən Vəli***

ARAŞDIRMA

# “Ermənilər öz ölkələrinə ləkə yaxdılar”



**Trend BİA-nın Baş direktor müavini, siyasi ekspert Sahil Kərimlinin SİA-ya müsahibəsini təqdim edirik:**

***- Şuşada növbəti dəfə Xarıbülbül festivalı keçirilib. Bu festivalın əhəmiyyətini necə qiymətləndirirsiniz?***

- İlk öncə mən xalqımızı və bütün dünya azərbaycanlılarını ”Xarıbülbül” festivalının keçirilməsi münasibətilə təbrik edirəm. Bu festivalın keçirilməsi əlbəttə ki, böyük əhəmiyyətə malik bir hadisədir. Bütün dünyanın nəzəri Şuşaya yönəlib. Bildiyimiz kimi, bundan əvvəl Dünya Azərbaycanlılarının V Qurultayı keçirilmişdi. Bu da çox böyük bir coşqu ilə həyata keçirilən bir tədbir idi. Yəni, hər birimizin qürur duyacağı bir hadisə idi. ”Xarıbülbül” festivalı hər bir azərbaycanlı tərəfindən böyük məmnunluq və sevinclə qarşılanır. Dünən cənab Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak etdilər. Əlbəttə ki, bu festivalın hər bir anı və dəqiqəsi bizim üçün dəyərli, yaddaqalandır. Çünki biz bu günləri həsrətlə gözləyirdik. 30 il torpaq həsrətilə, xüsusilə də Azərbaycanın döyünən ürəyi Şuşasız yaşamışıq. Bu da xalqımızda bir nisgil yaradırdı. Bu günləri sevinc və fəxrlə qeyd edirik.

Bu ilki festivalın özəlliyi xaricdən və qardaş Türkiyədən mədəniyyət xadimlərinin orada təmsil olunması idi. Onlar öz ölkələrinin mədəniyyətini, incəsənətini nümayiş etdirirdilər. Biz bununla bütün dünyaya sübut edirik ki, tarixi torpaqlarımıza qayıtmışıq. Şuşa Azərbaycanın tarixi torpağıdır, tarixi ərazisi və mədəniyyət paytaxtıdır. Nəinki Azərbaycanın, türk dünyasının artıq mədəniyyət paytaxtıdır. Biz bir daha göstərdik ki, sülhsevər, mədəniyyətə, tarixə və ənənələrə necə böyük dəyər verən xalqıq. Yəni, bugün Şuşanın sahibləri Şuşadadır.

***- İrəvanda Ermənistan müxalifətinin etiraz aksiyaları davam edir. Onların tələblərindən biri də Ermənistanın Azərbaycan və Türkiyə ilə sülh müqaviləsi bağlamaqdan imtina etməsidir. Necə hesab edirsiniz, Ermənistan hakimiyyəti radikal müxalifətin tələblərinə zidd addım ata biləcəkmi?***

- Bu gün Ermənistanda baş verən revanşist separatçı hərəkat Ermənistan üçün yaxşı heç nə vəd etmir. Çünki Ermənistan 44 günlük Vətən müharibəsində tamamilə darmadağın oldu. Həmçinin, bundan əvvəlki vaxtlarda da Ermənistanın bir dövlət kimi inkişafından söhbət gedə bilməzdi. Xarici ölkələrin təsiri altında olan, həm siyasi, həm də iqtisadi baxımdan müstəqil olmayan Ermənistan bu illər ərzində heç bir inkişafa nail ola bilmədi. Xüsusilə də, 44 günlük Vətən müharibəsində Ermənistan ən ağır şəkildə məğlubiyyətə uğradı. Biz döyüş meydanında onlara böyük bir dərs verdik. Tamamilə olmayan ordu darmadağın edildi.

Ermənilər bütün bunlardan dərs götürməlidir. Bu gün Ermənistan uçurumun astanasındadır. Onların yeganə çıxış yolu Azərbaycan və Türkiyə ilə sülh müqaviləsi imzalamaqdır. Revanşist qüvvələrin vəziyyəti gərginləşdirməsi Azərbaycan və Türkiyə ilə münasibətlərin yaxşılaşmasının qarşısını alır.

***- Belə məqamlarda Paşinyan iqtidarı üçün təhlükə varmı?***

- Təhlükə hər an var. Çünki Ermənistandakı revanşist və Sarkisyan, Köçəryan qüvvələrinin ətrafında toplanmış qüvvələr Azərbaycan xalqının cəlladları olublar və Azərbaycan xalqına qarşı soyqırım həyata keçiriblər. Həmin o revanşist hərbi cinayətkarlar bu niyyətlərini ortaya qoyurlar və yenidən status məsələsini ortaya gətirməyə çalışırlar. Halbuki Azərbaycan birmənalı şəkildə 44 günlük Vətən müharibəsi qələbəsindən sonra Ermənistan kapitulyasiya aktına imza atanda Azərbaycan Prezidenti birmənalı şəkildə vurğuladı ki, heç bir statusdan söhbət gedə bilməz. Həmin mövqe ən sərt və qətiyyətli formada bugün də davam edir. Amma erməni əsilli Azərbaycan vətəndaşları yəni, Qarabağda yaşayan erməni əsilli insanlar Azərbaycan vətəndaşlarıdır. Onların təhlükəsizliyi Azərbaycan dövləti tərəfdən qorunur. Bu belə də olmalıdır. Azərbaycanın ərazi bütövlüyü Ermənistan tərəfindən tanınmalıdır. Həm Azərbaycan, həm Ermənistan bir-birinin ərazi bütövlüyünü tanımalıdırlar.

***- Sizcə, Koçaryan-Sarkisyan cütlüyünün və "Qarabağ klanı"nın Ermənistan cəmiyyətindən dəstək almaq şansı qalırmı?***

- Burada tam dəstəkdən söhbət gedə bilməz. Onların öz havadarları və separatçı qrupları var ki, uzun illər Ermənistanı uçuruma sürüklədilər. Azərbaycana və Türkiyəyə qarşı ərazi iddiaları irəli sürərək, Azərbaycanın əzəli torpaqlarını işğal altında saxlamaqla orada böyük dağıntılar, vandalizm aktları, Azərbaycan xalqına qarşı dəfələrlə soyqırım cinayətləri həyata keçirməklə onlar öz ölkələrinə ləkə yaxdılar. Mən inanmıram ki, onların hansına dəstəkçiləri olsun. Separatçı və revanşist qruplaşmaları isə heç bir nəticəyə nail ola bilməyəcək.

***- Real aksiyaçılara qarşı cəmiyyətin reaksiyası necədir?***

- Əlbəttə, bu gün Ermənistan cəmiyyəti yaxşı başa düşür ki, münaqişə və təxribatların heç bir gələcəyi yoxdur. Onlar 44 günlük Vətən müharibəsinin nəticələrindən də artıq dərs çıxarırlar. Başa düşürlər ki, bu proseslər Ermənistanı dalana aparır.

***Ayşən Vəli***

# “Ermənistan hakimiyyətində hər an hər şey ola bilər”

***“Ermənistanda ”Qarabağ kartı”ndan istifadə edib hakimiyyətə gələn Sarkisyan və Koçaryan terrorçudurlar, cinayətkardırlar, Xocalı soyqırımında əlləri günahsız azərbaycanlıların qanına bulaşmış canidirlər. Eyni zamanda onlar erməni xalqınının da düşmənləridir. Ermənistanı uzun müddət çətin vəziyyətə salıblar”. Bu fikirləri SİA-ya açıqlamasında hərbi ekspert Emin Həsənli bildirib.***

Onun sözlərinə görə, bu canilər Ermənistanın çətin vəziyyətdən çıxmasına imkan vermirlər: ”Ancaq şəxsi mənafelərini güdür və təkrar hakimiyyətə gəlmək istəyirlər. Ermənistan cəmiyyəti seçkidə onlara yox deyib. Buna görə də müxtəlif aksiyalar törədiblər. Bir neçə dəfə Qarabağ məsələsinin tam həll olunmasına yaxın bir dönəmlərdə Ermənistanda bu cür hadisələr törədiblər. Ya parlament güllələboran edilib, ya Ermənistan küçələrində mitinqlər keçirilib. Onları xarici qüvvələr də dəstəkləyirlər. Ancaq bu dəfə vəziyyət fərqlidir. Ermənistan cəmiyyəti nağıllara inanmır. Müharibə istəmirlər və bilirlər ki, qarşılarında çox güclü Azərbaycan var. Onlar sülh üçün bunu istəmirlər. Sadəcə bilirlər ki, müharibə onların xeyrinə deyil, əksinə ziyanınadır. Ermənistanın vəziyyəti daha da ağırlaşır. Artıq Ermənistan başa düşür ki, Azərbaycan və Türkiyə ilə münasibətlər normallaşmaldır. Ermənistan üçün bu bir şansdır. Ermənistan bunu dəyərləndirməsə Azərbaycan daha ağır cavab verəcək. Heç kim düşünməməlidir ki, kimlərsə onları müdafiə edəcək.



Ermənistan hakimiyyətində hər an hər şey ola bilər. Ermənistanda hərbi çevriliş də ola bilər, qan da tökülə bilər, vəziyyət daha da acınacaqlı ola bilər. Ermənistan cəmiyyəti də bu ikilidən bezib.

Paşinyan sərxoş halda Qarabağda deyirdi ki, Qarabağ Ermənistandır. Xankəndində deyib ki, Qarabağı Ermənistana birləşdirəcəyik. Amma Azərbaycan onlara layiqli cavabını verdi. Paşinyan müharibədən sonra məsələlərə real yanaşmağa başladı. Bilir ki, onu beynəlxalq birlik dəstəkləmir və Ermənistanda da heç kim döyüşmək istəmir. Ona görə də bu danışıqlarla razılaşmaq istəyir. Ermənistan cəmiyyəti, oradakı siyasi qüvvələr ağıllarını başlarına yığmalıdır. Bilməlidirlər ki, bunun ağır nəticələri olacaq”.

***Abutel İlhamqızı***



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Paşik, günah öləndə olur!

“Azərbaycan iddia edirdi ki, müharibə zamanından qalmış mina sahələrində hər gün insanlar həlak olur... Biz Azərbaycana bütün xəritələri verdik... Azərbaycan bəyan etməyə başladı ki, bu xəritələr dəqiq deyil. Onlar bunu da spekulyasiya predmeti kimi istifadə etməyə cəhd göstərdilər, lakin bir şeyi görə bilmədilər ki, xəritələr verildikdən sonra insanların minaların partlaması nəticəsində həlak olmaları haqqında informasiyalar itməyə başladı” (???!!!-R.R.)

Bu sözləri Ermənistanın baş naziri Nikol Paşinyan (ləqəbi Paşik-R.R.) Hollandiyaya səfəri zamanı Klinqendeyldə (Niderlandın Beynəlxalq münasibətlər institutu) növbəti siyasi klounadasını, yaxud polyaçiliyini nümayiş etdirərkən deyib. Onun bu kimi sərsəmləməsi isə iki məsələ üzərində dayanmağa vadar edir - ya o çıxışı zamanı həddindən artıq sərxoş olub, ya da hollandların leqallaşdırdıqları marixuanadan sinə dolusu fısqırtdıqdan sonra bu sərsəm iddialarını önə sürüb. Ümumiyyətlə, Paşik son vaxtlar ard-arda çaşmağa başlayır və bu çaşqınlıq onun üçün çox yəqin ki, hətta dəqiq (!) baha başa oturacaq!

Sərxoş, yaxud marixuana təsiri altındakı Paşik qanmalıdır ki...

Bununla da o özünün ”yüksək siyasi intellekt qabiliyyətini” sərgiləyib və elə sanıb ki, doğru danışır, amma əslində, bu gün Paşikin sələfləri Serjikdən və Robikdən ümumiyyətlə fərqi yoxdur. Sərsəm elə sərsəmdir və onların buynuzları olmur ki, seçilə bilsinlər.

Və bu gün ermənilərin başları üstündəki baş-ayaq danışan nazirləri unudub ki, minalanmış ərazilərin xəritələri Azərbaycana 2021-ci ilin sentyabr və dekabr aylarında verilib. Halbuki 2020-ci ilin 10 noyabrından bu günə qədər minaların partlaması nəticəsində 38 insan həlak olub və bu gün də həlak olma halları davam edir! Özü də həlak olanlar, yaxud xəsarət alanların əsas çoxluğu mülki vətəndaşlardır.

Digər tərəfdən, sərxoş, yaxud marixuana təsiri altındakı Paşik qanmalıdır ki, yaralıların da əksər çoxluğu ayaqlarını, qollarını itiriblər və ömürlük əlil qalıblar. Hansı ki, Azərbaycan dövləti və müvafiq orqanları ərazilərin minalardan təmizlənməsi üçün nəhəng (!) işlər həyata keçirirlər və əgər burada insan itkilərinin sayının az olması üçün cəhdlər göstərilirsə bu, heç də ermənilərin müharibədən sonra ”mələkləşmələrinin” göstəricisi deyil, bu bilavasitə Azərbaycan dövlətinin göstərdiyi işin nəticəsidir. Gör indi həmin işlər keçirilməsəydi hansı faciələrlə qarşılaşa bilərdik?!

Son vaxtlar Paşikin başı yaman dumanlanıb!

Və bu gün işğaldan azad edilmiş ərazilərimizin minalardan təmizlənməsi prosesi gecə-gündüz, fasiləsiz qaydada həyata keçirilməkdədir. Yəni burada Paşikin iddia etdiyi kimi, Ermənistanın Azərbaycana verdiyi mina xəritələri demək olar ki, heç bir mühüm, əhəmiyyətli, yaxud ciddi rol oynamır. Bu məsələdə Azərbaycan öz qətiyyətini göstərir.

Hə, yeri gəlmişkən, Paşik onu da iddia edir ki, sən demə Azərbaycanda saxlanılan erməni diversantları ”hərbi əsirlər imiş” və onların geri qaytarılmaları müqabilində Ermənistan Azərbaycana növbəti dəfə ”mina xəritələrini” verməyə hazırıymış... Xeyir ola Paşik? Lap deyək ki, Azərbaycan ərazilərinə terror törətmək üçün dürtülən diversantları sənə təhvil vermədik, guya nə edəcəksən? Yenidən müharibəyəmi başlayacaqsan? Elədirsə başla, zatən son proseslər, deyəsən, yenidən həmin istiqamətə doğru gedir və burada uduzan tərəf yenə də erməni dövləti və xalqı olacaq.

Sərxoşluq və meyxoşluq Paşikin başını elə dumanlandırıb ki, cəmi bir müddət əvvəl başlarının necə əzildiyini də unutmağa başlayıb. Yəqin yenidən yada salmağın vaxtı çatıb. Amma bundan sonra günahı da özündə axtarsın, çünki günah öləndə olur...

P.S. Hələ bir utanmaz-utanmaz ”erməni dolmasını” zorla hollandların ağızlarına dürtüb onun ”erməni mətbəxi” adı altında YUNESKO-nun mədəni irsinə daixl olduğunu sırıyırsan. İndi hollandlar da eləməsin tənbəllik və açsınlar həmin irsi və görsünlər ki, bıy, sən demə dolma Azərbaycanın milli kulinariyasına aid yeməkdir və Paşik yalan danışırmış...

Nə isə... Paşik yenidən qaşınır və bu dəfə yalnız mina xəritələri deyil, həm də ”dolma” siyasəti ona yaman baha başa gələcək, inanmırsa, gözləsin, azca qalıb, lap az...

# Qüdrətli, qalib Azərbaycanın memarı - HEYDƏR ƏLİYEV

***Artıq xalqımız iki ildir ki, ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünü fərqli ovqatla, qalib kimi qarşılayır. Məhz bugünkü günün memarı olan Ümummilli Liderin arzuları artıq həyata keçirilib. Bütün fəaliyyətini Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına həsr edən Ulu Öndərin yarımçıq qalmış ideyalarını dahi şəxsiyyətin siyasi məktəbinin ən layiqli davamçısı Prezident İlham Əliyev reallaşdırdı.***

Ali Baş Komandan, Prezident İlham Əliyev "Dəmir yumruq" siyasəti ilə Müzəffər Azərbaycan Ordusu rəşadətli əsgər və zabitlərinin qəhrəmanlığı ilə 44 gün ərzində xalqımızın 30 illik yurd həsrətinə birdəfəlik son qoydu, Ermənistanı diz çökdürdü. Və 2020-ci ilin noyabrın 10-da Ermənistan dövləti kapitulyasiya oldu. Azərbaycan qalib Sərkərdə, Müzəffər Ali Baş Komandan İlham Əliyev siyasi strategiyası sayəsində öz gücünə torpaqlarımızı işğaldan azad etdi. Bununla da ulu öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirdi. Biz doğ-



*MUXTAR NAĞIYEV, YAP Səbail rayon təşkilatının sədri*

ma Qarabağımıza qovuşdu.

### 1969-CU İL İYULUN 14-DƏN BAŞLANAN YOL HEYDƏR ƏLİYEV EPOXASININ UĞURLU DAVAMIDIR

Tarix ən ədalətli hakimdir. Və bu gün Zəfərə gedən yolun əsasında tarixi şəxsiyyət, dahi Heydər Əliyevin ölməz ideyaları dayanır. Bu 1969-cu il iyulun 14-ü Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərlik etməyə başlaması kimi son dərəcə qiymətli bir hadisə ilə əbədiləşmişdir. Həmin dövrdə Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəni durumu heç də ürəkaçan deyildi. O zamankı sovetlər birliyinin ən ucqar respublikalarından biri kimi səciyyələnən Azərbaycanda idarəetmədə çoxlu nöqsanlara yol verilmiş, iqtisadiyyat geri qalmış, sosial-mənəvi mühit şəffaflıqdan uzaq düşmüşdü. Belə bir vaxtda Heydər Əliyevin respublikanın ali vəzifəsinə - Azərbaycan Kommunist Partiyasının Birinci Katibi seçilməsi tariximiz və taleyimiz, Vətənimiz və xalqımız üçün, sözün əsl mənasında, dönüş və xilas, möhtəşəm tərəqqi və yüksəliş erasının əsasını qoydu və xalqın etimadını Ondan başqa heç kim doğrulda bilməzdi. Belə bir dahi insanın Azərbaycanda rəhbərliyə başlaması respublikanın xilası üçün yeganə düzgün yol idi. 1969-cu ildən başlanan böyük quruculuq və yüksəliş mərhələsi qısa müddətdə Azərbaycanı bütün sahələrdə geniş tərəqqi yoluna çıxardı. Azərbaycanda Heydər Əliyevin birinci hakimiyyəti dövründə (1969-1982) sosial, siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində ölçüyəgəlməz uğurlar qazanılmış, qüdrətli iqtisadi potensial, maddi-texniki baza yaradılmış, əhalinin rifahı xeyli yüksəlmiş, elm, təhsil, mədəniyyət güclü inkişaf prosesi keçmiş, milli şüurun oyanışı və dirçəldilməsi istiqamətində çox mühüm işlər görüldü. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə sənayedə 581 adda yeni tipli maşın, avadanlıq, aparat, cihaz nümunələri yaradılmış, 310 avtomatlaşdırılmış xətt, 1300 kompleks mexanikləşdirilmiş sex, istehsal sahəsi və i.a. yaradılmışdır. 1970-ci ildən başlayaraq Azərbaycan sənaye məhsulunun artım sürətinə görə müttəfiq respublikalar arasında ən qabaqcıl mövqeyə çıxmışdı. Respublikada kənd təsərrüfatı və onun xam malını emal edən sahələr böyük sürətlə inkişaf edirdi. 1970-1982-ci illərdə kənd təsərrüfatı məhsulu 2,6 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə artmışdı. Bütün bunlar inkişafın ümumiləşdirilmiş göstəricisi olan milli gəlirin sürətlə artmasına səbəb oldu.

Eyni zamanda, Azərbaycan dilinin dövlət dili kimi Konstitusiya səviyyəsində rəsmi status qazanması da dahi rəhbərin qətiyyəti, siyasi iradəsi hesabına gerçəkləşdi. Möhtəşəm fəaliyyəti ilə şöhrətlənən dahi Heydər Əliyev 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkildi. Bütün bunlar isə 1969-cu il iyulun 14-dən başlanan şanlı Heydər Əliyev epoxasının vüsət və əzəmətinin parlaq təzahürü idi.

Heydər Əliyevin respublika rəhbərliyinə gəlişi ilə ölkəmizdə görünməmiş canlanma və inkişaf, nəhəng tikinti-quruculuq işləri başlandı. Bakıda o dövr üçün nadir müəssisələr - məişət kondisionerləri, dərin dəniz özülləri zavodları, paytaxtımıza bu gün də yaraşıq verən ictimai binalar - "Gülüstan" sarayı, Heydər Əliyev Sarayı tikildi. Həmçinin Yeni Əhmədli, Günəşli kimi nəhəng yaşayış massivləri salındı. Kənd təsərrüfatı məhsulları istehsalı dəfələrlə artdı. Bunun nəticəsi olaraq, əhalinin güzəranı yaxşılaşdı, bir çox sosial layihələr həyata keçirildi. Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illər haqlı olaraq intibah dövrü kimi səciyyələndirilir.

Respublikanın əvvəlki rəhbərlərindən fərqli olaraq, Heydər Əliyev bölgələrə tez-tez səfərlər edir, insanlarla bilavasitə ünsiyyət qurur, onların problemləri və qayğıları ilə şəxsən maraqlanırdı. Onun alimlər, yazıçılar, mədəniyyət xadimləri ilə görüşləri də ənənə halını almışdı. 1982-ci ildə Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçildi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi. Azərbaycan xalqının böyük oğlu mərkəzi hökumətdə tutduğu vəzifənin imkanlarından istifadə edərək, İttifaq əhəmiyyətli bir sıra böyük layihələri Bakıya yönəltdi. Həmin illərdəki coşqun fəaliyyəti, yüksək işgüzarlığı, fitri təşkilatçılıq bacarığı onu daha da şöhrətləndirdi.



Mixail Qorbaçov SSRİ-də siyasi hakimiyyətə gəldikdən sonra Heydər Əliyevə münasibət dəyişdi. Baş katiblə aralarında yaranmış ciddi fikir ayrılığı səbəbindən 1987-ci ildə tutduğu vəzifələrdən istefa verdi. Bundan bir il sonra Dağlıq Qarabağda separatçılıq hərəkatı baş qaldırdı, Azərbaycanın qara günləri başladı. Yəqin ki, o vaxt Heydər Əliyev rəhbərlikdə olsaydı, Azərbaycan xalqı Qarabağ problemi ilə, qara Yanvarla və digər faciələrlə üzləşməzdi. 1990-cı illərin əvvəlində - Vətənin ağır günlərində Ulu Öndər Azərbaycana qayıtdı. O vaxtkı rəhbərlik onun Bakıya yolunu kəsdiyi üçün doğulub boya-başa çatdığı Naxçıvana getdi.

Naxçıvan Ali Sovetinin Sədri seçilən Heydər Əliyev muxtar respublikanı erməni təcavüzündən, siyasi təlatümlərdən qorudu. Yetmiş ildən sonra ilk dəfə Naxçıvanda üçrəngli bayrağımızı ucaltdı.

### 1993-CÜ İL İYUNUN 15-DƏ QOYULAN QURTULUŞ VƏ İNKİŞAF YOLU

Azərbaycan xalqının taleyində böyük əhəmiyyəti olan günlərdən biri və ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günüdür. Bu əlamətdar gündən ötən 29 il Azərbaycanın qurtuluş və zəfər dövrüdür. 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas oldu, inkişafın sarsılmaz təməlləri qoyuldu.

"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən ümummilli lider problemlərin həlli üçün, ilk növbədə, bütün səylərini ölkədə vətəndaş həmrəyliyinin, sabitliyin təmin olunmasına yönəltdi və buna nail oldu, inkişafın təməllərini qoydu. Bu istiqamətdə ilk addım 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması ilə atıldı. Sonrakı dövrdə ulu öndərin təşəbbüsü və rəhbərliyi ilə qədim İpək Yolunun bərpasına, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilişinə başlanıldı. Prezident İlham Əliyevin hakimiyyəti dövründə bu transmilli layihələrə Çini Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, Azərbaycan qazını Avropaya çatdıran Cənub Qaz Dəhlizi əlavə edildi.

1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən Konstitusiya qəbul olundu. Beləliklə, ölkədə daha genişmiqyaslı islahatlar aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına start verildi.

### HEYDƏR ƏLİYEV İDEYALARININ İŞIĞINDA DİNAMİK İNKİŞAF EDƏN, ƏRAZİ BÜTÖVLÜYÜ BƏRPA OLUNAN AZƏRBAYCAN

Ulu öndər Heydər Əliyev siyasətinin davamçısı Prezident İlham Əliyev son 18 ildə ümummilli liderin ideyalarının işığında böyük inkişaf yolu keçib, ölkəmizin ərazi bütövlüyü bərpa edilib. Bütün bunlar əyani şəkildə göstərir ki, Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü təmin olunmuş Azərbaycandır. Məhz Ulu Öndərin ordu quruculuğu istiqamətində başladığı işlər və müəyyənləşdirdiyi strategiya sayəsində bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasında yer alır, texniki təchizat baxımından bir çox ölkələrin ordularını üstələyir. Təsadüfi deyil ki, Azərbaycanın Vətən müharibəsi, xüsusən, misilsiz Şuşa əməliyyatı dünyanın aparıcı ölkələri tərəfindən öyrənilməkdədir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu Vətən müharibəsində parlaq Qələbə qazanaraq işğal altındakı torpaqlarımızı azad edib, ölkəmizin ərazi bütövlüyü təmin olunub. Ulu Öndərin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. Ümummilli Liderin məcburi köçkünlər qarşısında çıxışlarının birində böyük inamla söylədiyi bu sözlər yada düşür: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mənəviyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu - biz onlarsız yaşaya bilmərik".

Ruhun şad olsun, ulu öndər, artıq 28 ildən sonra Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. Bu gün Şuşada, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə üçrəngli bayrağımız əzəmətlə dalğalanır.

Bir sözlə, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi yolla inkişaf edən müstəqil Azərbaycan bundan sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə daha böyük nailiyyətlər əldə edəcəkdir.

# CAVİDİN RUHUNA HÖRMƏT NAMİNƏ


Orijinal şəkil

**Hörmətli oxucular, Cavidsevənlər!**

Bu yazını dahi şair-dramaturq, filosof Hüseyn Cavidin qızı mərhum Turan Cavidin 1998-ci il martın 12-də "Azərbaycan" qəzetinin redaksiyasına göndərdiyi müraciətdən parçalar ilə başlamaq istəyirəm.

"Hörmətli ədəbi ictimaiyyət! Hörmətli Cavidsevərlər!

Son illərdə Hüseyn Cavid irsinin öyrənilməsi, təbliği, şairin xatirəsinin əbədiləşdirilməsi istiqamətində respublikada görülən işlər dərin minnətdarlıq duyğuları oyadır. Övlad kimi məni ən çox sevindirən cəhətlərindən biri budur ki, artıq Bakıda şairin adı ilə bağlı mərkəz var. Hörmətli Prezidentimiz, Cavid xatirəsinə hər kəsdən daha artıq diqqət və qayğı göstərmiş cənab Heydər Əliyevin qətiyyəti sayəsində nəhayət ki, uzun illərdən bəri gözlənilən məqsəd həyata keçib - Elmlər Akademiyasında Hüseyn Cavidin Ev-Muzeyi yaradılıb. Burada yalnız Cavidlə bağlı yadigarlar nümayiş etdirilmir, həm də onun həyat və yaradıcılığının ayrı- ayrı problemləri ətrafında elmi-tədqiqat işləri aparılır.

Məni respublika ədəbi və elmi ictimaiyyətinə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin rəhbərlərinə , təhsil ocaqlarına, qəzet və jurnal redaksiyalarına, mədəniyyət müəssisələrinin başçılarına müraciət etməyə bir nigarançılıq vadar eləyir. Cavid və özü haqqında işıq üzü görən yazılara da nəşr edilən əsərlərində, pyeslərinin səhnələrdəki ifasına da çox vasvası münasibət vardı. O, buraxılan səhvlərə, təhriflərə, qeyri-ciddi münasibətlərə çox narahat olurdu. İndi mən də eyni hissləri vaxtaşırı yaşamalı oluram..."

Müraciətin sonunda Turan xanım ictimaiyyətə bildirir: "Mənim yeganə arzum budur ki, atam haqqında yalnız doğru, yanlışsız, təhrifsiz yazılmış əsərlər işıq üzü görsün."

Turan Cavidin bu müraciətinə baxmayaraq Cavidlər ailəsinin ruhlarını incidən səbəblər yenə də ortaya çıxır. 2009- cu ildə nəşr olunmuş, müəlliflər Rafiq İsmayılov, Gülşən Orucova, Zahid Xəlilov və Dilrubə Cəfərovanın tərtib etdikləri "Azərbaycan dili " ( 2-ci sinif üçün dərslik) kitabının 50-ci səhifəsində Hüsey Cavidin məşhur "Qız məktəbində" şeiri "Məktəbli qız" adı ilə tərcümə olunaraq nəşr olunmuşdur. (Tərcüməyə ehtiyac var idimi) Həmin vaxt H.Cavidin Bakı və Naxçıvan şəhərlərindəki ev-muzeylərində, ""Turan Cavid" Qadın Mərkəzi" İctimai Birliyində qəzetin çaldığı həyəcan təbilinə dərhal münasibət bildirilmişdi.

Təxminən 2013-cü ildə nəşr olunmuş " Bağçada və məktəbdə 101 şeir (Kitabın heç bir yerində nəşr ili göstərilmir) adlı kitabda Hüsey Cavidin" Qız məktəbində" şeiri "Gülbahar" adı ilə təqdim olunur. Kitab Bakıda, "Qələm" MMC nəşriyyatında işıq üzü görüb. Nəşrin rəhbəri Pərviz Eyyubov kitaba aşağıdakı məzmunda xəbərdarlıq da daxil edib: "Müəllif-lik haqqı qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı bir hissəsini çap etdirmək, surətini çıxartmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir".

Burada hansı müəlliflik hüququ qorunur? Heç bir əsas olmadan şeirin adını dəyişdirilib, hətta şeirin yanında verilmiş illüstrasiyanın da məzmuna heç bir aidiyyatı yoxdur.

Narahatlıq yaradan səbəblərdən biri də son illər internet saytlarında Hüseyn Cavidə aid olan səhifələrdə dahi şairin ailəsi ilə, dostları ilə və müxtəlif illərdə olan tək şəkilləri göstərilir. Həmin səhifədə bir rəngli portret yayılmışdır ki, bu da Hüseyn Cavidin özü deyil, hər hansı bir mərkəzi, yaxud əyalət teatrlarından birinin aktyoru olan, bəlkə də hər hansı mülki bir şəxsin Cavid geyimində olan şəkilidir. Həmin şəxs bu şəkildə özünü şairin 1923-cü ildə çəkilmiş foto-şəklindəki geyimində təqdim edir. 1923-cü ildə çəkilmiş orijinal fotoda şairin xarakteri onun üz cizgilərindən aydın sezilir. Cavidə oxşayan şəxsin rəngli şəklində isə başa düşmək olmur ki, şair hansı xoş gününə gülümsəyərək özündən razı halda əyləşmişdir?! Hər iki şəklə diqqətlə baxanda fərq aydın görünür. Bəla burasındadır ki, bəzi nəşriyyat və redaksiyalarda, Cavidlə bağlı keçirilmiş müxtəlif tədbirlərin proqramlarında, konfransların materialları nəşr olunmuş kitablarda da Cavidəoxşarın həmin rəngli şəklindən istifadə olunmuşdur. Ən maraqlısı isə budur ki, Hüseyn Cavidin ömür boyu rəngli foto-şəkli olmayıb.

2019-cu ildə orta məktəb şagirdləri, MİQ və sertifikasiyaya hazırlaşanlar üçün vəsait, 5-11-ci siniflər üçün ədəbiyyat dərsliyinin cildinin üzərində şair və yazıçıların şəkilləri təqdim olunub. Cavidin orijinal şəkli əvəzinə burada yenə də Cavidəoxşar şəxsin şəkli verilmişdir. Hətta kitabın içərisində, Cavidə aid bölmədə şair-dramaturqun " Ana" pyesi verilmiş, səhifənin yuxarı hissəsində yenə də həmin yanlış şəkildən istifadə olunmuşdur.


Saxta şəkil

2020-ci il aprel ayının 30-da, gecə saat 11-də indi fəaliyyət göstərməyən "Lider" Telekanalının "Gecənin sehrində" verilişində də arxa planda bir neçə şairin şəkillərilə yanaşı həmin Cavidəoxşar şəxsin şəkli qoyulmuşdu. Çox təəccüblüdür ki, müasir Cavidşünaslarımız niyə indiyə qədər bu yalnışlıqlara qarşı öz etirazlarını bildirmir, müşahidəçi mövqedə duraraq ciddi addımlar atmır, müvafiq tədbirlər görülməsi üçün təşəbbüs göstərmirlər?

Bu il dahi şairin anadan olmasının 140 illik yubileyi təntənə ilə qeyd olunacaqdır. İnanıram ki, bu yazıdan sonra yubiley ərəfəsində həmin yanlış foto-şəklə bir daha müraciət olunmayacaqdır. Hörmətli yazarlar, jurnalistlər, naşirlər və tədbirlərin təşkilatçıları. Sonda sizlərdən çox xahiş edirəm ki, Hüseyn Cavid haqqında yazılar, verilişlər, kitablar və tədbirlər hazırlayanda mütləq şairin özünə məxsus olan foto-şəkillərindən istifadə edin.

***BƏHRUZ AXUNDOV***

**Hüseyn Cavidin Naxçıvandakı Ev-Muzeyinin ilk direktoru, əməkdar mədəniyyət işçisi.**

# Ağıl paylananda görən Əli Kərimli harada olub?

***Deyərəm və sübut da edərəm ki, əksər hallarda insanın başına nə bəla gəlirsə, ağılsızlığından və gözlənilənləri əvvəlcədən proqnozlaşdıra bilməməsindən gəlir. Düzdür, fəlakətlərdən və faciələrdən hər hansı bir bəşər övladı sığortalanmayıb.***



Hər bir kəs gözlənilmədən ağır tramva alar, sarsıntıya düçar olar və ya fəlakətlə üzləşə bilər. Bunun adı, deyərdim ki, Allahın yazdığı yazıdır. Bir də var ki, göz-görəsi özünü yanan ocağın üstünə atmasıdır. Misal üçün bir əliəyri insanın dükandan-bazardan oğurluq etməsini, başqa birisinin ona məxsus olmayanı ələ keçirməyə cəhd etməsini, digərinin tamahı səbəbindən dövlətə məxsuz əmlakı talan etməyə çalışmasını göstərmək olar. Əksər hallarda da bu kimi əməl sahibləri ifşa olunub, məşhər ayağına çəkiləndə deyirlər ki, "yazıq heç nədən güdaza getdi". "Ağılı olmayıb, ağılsızlığının qurbanı oldu" deyib, özlərini çoxbilmiş kimi göstərənlər də olur. Sonuncular bədahətən fikirlər söyləsələr də, haradasa haqlıdırlar. Həqiqətən də yuxarıda qeyd etdiyim kimi, insanın başına nə bəla gəlirsə, ağılsızlığından gəlir. Həm də insan hər ağılına gələni danışmamalıdır. Amma bir də görürsən ki, məclisin şirin yerində bir insan özünü dərin biliyə malik savadlı şəxs olaraq göstərmək üçün yersiz fikirlər söyləyir, hətta təkliflər irəli sürür. Nəticədə pıchapıç başlayır, təklif və fikir söyləyəni qınayan, lağa qoyanlar olur ki, bu da bəzən məclisdə ciddi qalmaqallar yaradır, dava-dalaşa səbəb olur. Belə hallarda deyirlər ki, heç təklifin yeridir. Bu baxımdandır ki, Platon deyirdi ki, "Ağıllı adamlar söyləməyə sözləri olduğu üçün, axmaqlar isə danışmağa məcbur olduqları üçün danışırlar".

Çox təəssüflər olsun ki, bu gün əksər cəmiyyətlərdə olduğu kimi, Azərbaycanda da yersiz fikir və təklif irəli sürənlərin sayı kifayət qədər çoxdur. Sosial şəbəkələrə nəzər yetirdikdə, bunu əyani şəkildə görmək olar. Siyasi arenada boş-boşuna vargəl edən "siyasətçi"lər də var ki, vaxtaşırı ideyalar irəli sürür, təkliflər səsləndirirlər, populistlik etməklə ən azı mətbuatın diqqətini özünə cəlb etməyə çalışan siyasi partiya sədrləri də mövcuddur. Beləleri arasında AXCP sədri Əli Kərimli diribaşlığı və fəndgirliyi ilə digərlərindən daha çox seçilir. Bu məxluq heç bir yerdə işləmədiyi halda, böyük maliyyə imkanlarına malikdir. Bağı, bağatı, evi, maşını, eləcə də mühafizəçiləri də var. Nəyin hesabına? Təbii ki, maddi təminatı bicliyi, fəndgirliyi, yerli və xarici məkrli dairələri öz yalan-palanları, boş vədləri ilə aldatması ilə əldə edib. 60 yaşını haqlayan bu biçarə Azərbaycan dövlətinə, cəmiyyətinə altmış qəpiklik xeyir verməmiyi halda, altmış milyonluq iddialar irəli sürür, təklif və ideyalar səsləndirir. Aradabir küçələrə çıxıb, insanları qarşıdurmalara, iğtişaşlara qızışdırır. İndi də məlum olur ki, bu məxluq "5- ci kolon" deyilən pozucu qüvvələrin ideoloquna çevrilməklə onları müəyyən təxribatlar törətməyə, Azərbaycan haqqında şər və böhtan xarakterli informasiyalar yaymağa məcbur edir. Məlumdur ki, son günlər fəallaşmış "5-ci kolon" fəalları ciddi cəhdlə Azərbaycanda insan hüquqlarının pozulduğu, guya ictimai fəallara basqıların təşkil olunduğu barədə məlumatlar yayırlar. Bu, bir faktdır ki, ABŞ-ın NED-National Endowment for Democracy fondu Azərbaycan üçün 2022-ci il üçün ayırdığı təsdiqlənmiş qrantın ümumi məbləği 970, 235 dollar təşkil edir. Bu məbləğin 398,837 min dolları Bakıda və regionlarda vətəndaş iştirakçılığının aktivliyinin artırılması, insan hüquqlarının müdafiəsi adı altında etirazların təşkili, insan hüquqlarının qorunmasının monitorinqi və digər bu kimi məsələlərin maliyyələşdirilməsi ilə bağlı layihələrin gerçəkləşdirilməsinə yönəldilib. ABŞ-ın NED-National Endowment for Democracy Fondu 2022-ci ildə Azərbaycana ayırdığı təsdiqlənmiş qrantlarda may ayında təcili qrantların maliyyələşdirilməsi ilə bağlı bənd var. NED və bu tip institutların təcrübəsində "təcili qrantların ayrılması" hansısa prosesi təcili maliyyələşdirmək üçün nəzərdə tutulur. NED-in verdiyi elandan da bəlli olur ki, təcili qrantların ayrılması mayın 25-nə qədər olan dövrü əhatə edir.

Hazırda həmin təcili qrant layihəsini icra edən "5-ci kolon" Aytən Məmmədova ilə bağlı baş vermiş məişət hadisəsini qabardır, bu kimi bir neçə digər hadisəni də əhatə edərək guya Azərbaycanda insan hüquqlarının kobud şəkildə pozulduğu görüntüsü yaratmağa cəhd göstərirlər. Bəllidir ki, iyunun 10-12-də Bakıda Formula 1 yarışı start götürəcək. Hazırkı fəallıq, Aytən Məmmədova ilə bağlı baş verən hadisə, birdən-birə bir qrup şəxsin meydana çıxması və bəyanat yayması, ABŞ-ın Azərbaycandakı səfirliyinin buna dərhal reaksiyası, sonda isə hadisənin hətta ABŞ Dövlət Departamentinin diqqət mərkəzinə gəlməsi, bunların nəticəsi olaraq həmin "fəalların" aksiya təyin etməsi beynəlxalq yarışın keçiriləcəyi günlərdə təşkil olunacaq anti-Azərbaycan kampaniyaya fakt-əsaslar formalaşdırmaq məqsədi güdür.

Bir sözlə, görünən ondan ibarətdir ki, xarici maraqlı dairələrin əlaltısı rolunda çıxış edən AXCP sədri Ə.Kərimli ilə müəyyən iş birliyinə girən və ABŞ-ın NED-National Endowment for Democracy fondunun ayırdığı qəpik-quruşa həvəslənən "5-ci kolon" fəalları ölkəmiz haqqında beynəlxalq aləmdə əsassız dezinformasiyalar yaymağa çalışırlar. Təbii ki, belə hay-küyçülər zaman-zaman olub və budəfəki boşboğazlıq da dedi-qodudan başqa bir şey deyil.

***İ.ƏLİYEV***

# "Yerevanın səs-küyü bütün Qarabağın Azərbaycana qayıdacağı faktını dəyişməyəcək"

***Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti Aleksey Naumov "Moskva-Bakı" portalına müsahibəsində Qarabağın statusuna görə İrəvanın informasiya səs-küyünə niyə ehtiyac duyduğu haqda fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.***



**- Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması ətrafında vəziyyət necədir? Bir tərəfdən, görünür, bütün tərəflər sülh əhval-ruhiyyəsindədir, amma bir tərəfdən də mübarizə gedir. Xüsusilə, iki gün əvvəl Hollandiyada Ermənistanın baş naziri Ermənistan hakimiyyətinin sülhməramlı gündəmi təbliğ etdiyinə bir daha işarə vurmasına baxmayaraq, Azərbaycanı guya Qarabağ məsələsini ərazi məsələsi kimi təqdim etməkdə ittiham edib. Nikol Paşinyana görə, o, əslində hüquqi məsələdir, yəni Qarabağ ermənilərinin hüquqları məsələsidir. Qarabağ ermənilərinin hüquqlarına əsaslanaraq İrəvanda deyirlər ki, Qarabağın statusu məsələsi də həll olunmalıdır.**

- Mənə elə gəlir ki, ümumiyyətlə, Ermənistan-Azərbaycan nizamlanması ətrafında vəziyyəti qiymətləndirərkən və Ermənistan tərəfinin hərəkətlərini və bəyanatlarını təhlil edərkən anlamaq lazımdır ki, bu gün İrəvan bütün digər çağırışlarla yanaşı, son dərəcə böyük təhlükə ilə üz-üzədir. Qarşılarında mühüm vəzifə - simasını itirməmək, Azərbaycanın qarşısında uduzan kimi görünməmək, məğlub görünməmək. İkinci Qarabağ müharibəsində Ermənistan məğlub oldu, Azərbaycan qalib gəldi. Eyni zamanda, müharibədən sonra onun üçün ən xoşagəlməz proqnozlara baxmayaraq, Paşinyan hakimiyyətdə qala bildi. Və bu gün onun ən mühüm vəzifəsi hərbi məğlubiyyət fonunda özünü məğlubiyyətsiz göstərməkdir. Yerevanın indiki bir çox qərarları da bu məntiqlə diktə olunur.

O ki qaldı Qarabağın statusu məsələsinə, mən əslində, bu sahədə müsbət irəliləyiş görürəm. Qarabağın statusu ilə bağlı "ərazi" ifadələri artıq rəsmi olaraq heç kim tərəfindən səsləndirilmir, çünki hamı bilir ki, Qarabağın Azərbaycan olmasından başqa həll yolu yoxdur. Amma erməni tərəfi Qarabağ ermənilərinin hüquqları ilə bağlı məsələ qaldırır. Əvvəllər Ermənistan tərəfinin işğal etdiyi qalan ərazinin yenidən Azərbaycana reinteqrasiya ediləcəyi göz qabağındadır. Qarabağ erməniləri nə iddia edə bilər - bəlkə də xüsusi statuslu bələdiyyə. Aydındır ki, ümumilikdə Azərbaycan Qarabağın statusu ilə bağlı güzəştə getməyəcək və İrəvan reallıqla barışmalı olacaq, çünki bu gün bu oyunun qaydalarını müəyyən etmir və gələcəyin konturlarını diktə edə bilməz.

**- Azərbaycan Bakı ilə İrəvan arasında sülh sazişinin müzakirəsinin Bakının təklif etdiyi 5 prinsipə əsaslandığını bildirir (bunu bir müddət əvvəl Rusiya Xarici İşlər Nazirliyi də təsdiqləyib). Eyni zamanda, Ermənistanın Təhlükəsizlik Şurasının katibi bu yaxınlarda bəyan etdi ki, erməni tərəfi Bakının 5 prinsipinə cavab olaraq öz 6 prinsipini təqdim edib və tərəflər hamısını birləşdirib müzakirə etməlidir. Bakının bu mövqeyi Qarabağın statusunun heç vaxt heç bir şəkildə müzakirə olunmayacağının bir daha təsdiqidirmi?**

- Biz dönə-dönə, təkrar-təkrar elə vəziyyətə gəlirik ki, Ermənistan diplomatik səylərinin bir hissəsini öz xalqının maraqları uğrunda döyüş kimi təqdim etməlidir. Deyirləe ki, düzdür, Bakı öz 5 prinsipini təklif edir, biz isə öz 6 prinsipimizi təklif edirik. Aydındır ki, gec-tez Ermənistan son nəticədə Azərbaycanın israr etdiyi ilə razılaşmaq məcburiyyətində qalacaq. Amma sonra Paşinyan deyə biləcək: biz diplomatik yolda şir kimi döyüşdük, çox şey etdik, öz prinsiplərimizi irəli sürdük, amma sonda gördüyünüz kimi, belə qərar verildi... Əslində, İrəvanın real hərəkətlərini onun yaratdığı informasiya səs-küyündən ayırmaq çox çətindir, ona görə ki, sonradan hər şeyin olduğu kimi getdiyini deyə bilsin.

**- Ermənistanda müxalifətin mitinqləri (bunun arxasında "Qarabağ klanı" dayanır)- Ermənistan-Azərbaycan nizamlanmasında vəziyyəti nə dərəcədə dəyişə bilər?**

-Müxalifətin mitinqləri Ermənistan-Azərbaycan nizamlanmasında vəziyyəti dəyişə bilməz. Baxaq ki, hətta hipotetik olaraq, müxalifətin məncə tamamilə qeyri-mümkün qələbəsi halında nə baş verəcək, yeni müharibə olacaqmı? Bəs buna kim icazə verəcək? Hipotetik müharibə olsa belə, Ermənistan növbəti dəfə məğlub olacaq, çünki Azərbaycan silahlı qüvvələri ilə bağlı vəziyyətdən fərqli olaraq, onun silahlı qüvvələri ilə bağlı vəziyyət yaxşılaşmayıb. Ermənistanda mitinqlərlə bağlı nəinki əhalinin dəstəyi var, müxalifətin özü də əhaliyə gələcəyə baxışı ilə bağlı öz baxışını təmin etmir- onun hansı həyat tərzini təklif etdiyi bəlli deyil. Qarabağda qisas almaq üçün? Müxalifət Paşinyanı tənqid edir, amma özü hakimiyyətə gəlsə nələr olacağına cavab vermir və müxalifətin mitinqləri gələcəyə hansısa alternativ baxış üçün etiraz aksiyalarından daha çox narazılıq mitinqlərinə bənzəyir.



**- Qərb Ermənistan-Azərbaycan nizamlanmasını Rusiyanın əlindən ala bilir, yoxsa bu, hələ də mümkün deyil? Aİ və ABŞ-ın fəallığı çox yüksəkdir.**

- Məncə, Moskva konkret sülhməramlı, sabitləşdirici rol oynayır-o, münaqişə zonasında döyüşlərin bərpasına imkan vermir və orada vaxtaşırı baş verən təxribatları dayandırmağa çalışır. Hər halda, Moskva Cənubi Qafqazda nizamlanmanın baş tutmasında maraqlıdır. Çünki Rusiya qlobal təhlükəsizlik arxitekturasına yenidən baxılması prosesinin bir hissəsi kimi özünü çoxqütblü dünyanın potensial liderlərindən biri kimi göstərir. Və buna uyğun olaraq, o, bu çoxqütblü dünyaya öz həyat qabiliyyətinə dair bəzi sübutlar təqdim etməlidir. Cənubi Qafqazda tamhüquqlu nizamlanma üçün vasitəçiliyin bundan sonra da davam etdirilməsi yaxşı nümunə ola bilər. Nisbətən desək, ATƏT-in Minsk qrupu baş tutmadı, Aİ və ABŞ-ı biabır etdilər və biz burada vəziyyəti özümüz həll etdik. Tərəflər 3 ölkə deməkdir- Rusiya, Azərbaycan, Ermənistan. Bizə Brüsseldən və ya Vaşinqtondan heç bir komandir lazım deyil.

Düşünmürəm ki, Qərb Rusiyadan Ermənistan-Azərbaycan nizamlanmasını almağa müvəffəq olsun. Aydındır ki, Ermənistan və Azərbaycan, ilk növbədə, Azərbaycan tezliklə sülh yolu ilə nizamlanmada maraqlıdır və burada bu nizamlanmanın kimin himayəsi altında olacağı sualı yoxdur- Rusiya işləyirsə- yaxşıdır, Avropa İttifaqı işləyirsə - yaxşıdır, Birləşmiş Ştatlar işləyirsə - yaxşıdır. Yəni, məqsədlərə çatmaq üçün edilən bütün səylər, kimin etməsindən asılı olmayaraq müsbətdir. Aydındır ki, Moskva nizamlanmada vasitəçi kimi dominant rolunu saxlamaq istəyir. Və təbii ki, beynəlxalq münasibətlərin digər iştirakçılarının da bu prosesə inteqrasiya etməyə çalışmasından narazılıq yarana bilər. Ancaq məncə, Moskva üçün bu, daha səmərəli işləmək üçün sadəcə əlavə stimuldur. Bunun situasiyaya o qədər də pis təsir edəcəyini düşünmürəm. Bununla belə, biz başa düşürük ki, nizamlanmada yalnız bir ölkənin - Rusiyanın iştirakı var və bu qlobal amili dayandırmaq olmaz. Və düşünürəm ki, sülh üçün işləyən hər şey yaxşıdır.

**- Ermənistan hər fürsətdə ATƏT-in Minsk Qrupunun vasitəçiliyi məntiqini irəli sürməyə çalışır... Bu isə əslində, artıq yoxdur.**

- Erməni siyasətinin işi maksimum hay-küy salmaqdır. Aydındır ki, Minsk Qrupu ölüb, Rusiya bildirib ki, ATƏT-in Minsk Qrupuna üzv olan digər dövlətlər qrup çərçivəsində onunla əməkdaşlıqdan imtina ediblər. Amma informasiya səs-küyü yaratmaq xatirinə ATƏT-in Minsk Qrupunu da yada salmaq və beləliklə, qərbli həmkarlarının köməyinə müraciət etmək olar. Ona görə də hesab edirəm ki, İrəvan bu fəaliyyətə o qədər də əhəmiyyət verməməlidir.

**- Düşənbədə Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü keçirildi. Moskva bu görüşdə vasitəçi kimi qarşısına hansı vəzifələri qoydu?**

- Hesab edirəm ki, bu görüşə, əslində, heç bir böyük, fövqəladə əhəmiyyət vermək olmaz. Hazırkı prosesin məsələləri- sərhədin delimitasiyası və demarkasiyası və sülh sazişi, Sovet dövründən qalan anklavlarla bağlı son məsələ müzakirə olunub. Düşünürəm ki, biz bu görüşdən əsas irəliləyişləri gözləməliyik. Hər şey işlək damardadır - Avropa Şurasının rəhbəri Şarl Mişellə, indi isə Lavrovla görüş olub. Təbii ki, Rusiyanın proseslərə nəzarət etməsi vacibdir ki, onun irəli getməsi ləngiməsin. Axı tərəflər bu qədər müddətdir ki, sərhədin delimitasiyası ilə bağlı müzakirələrə başlaya bilmirlər. Qərb də bunu təmin edə bilmədi. Amma sülh prosesi irəliləyir.

***Müsahibə- Nana Xoştariya***
***Tərcümə- Elçin Bayramlı***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# SƏS

SON SƏHİFƏ

14 may 2022-ci il

# Müğənni köhnə sevgilisini məhkəməyə verir



Türk müğənni İrem Derici ona azərbaycanlı xanımla xəyanət edən keçmiş sevgilisi Cem Belevini məhkəməyə vermək qərarı alıb. SİA xəbər verir ki, Cemin azərbaycanlı model Nərgiz Nəsrullayeva ilə eşq yaşadığı söylənilmişdi. Müğənni hətta Cem Belevi ilə birgə çəkildiyi "Belki" adlı mahnının klipini də "Youtube"dan sildirmək istəyir. İrem Derici bununla bağlı vəkillərinə təlimat da verib.

**Ləman Əlizadə**

# Oyuncaqlar uşaq psixologiyasına necə təsir edir?



*"Oyun və oyuncaqlar uşağın inkişafı üçün çox önəmli yer tutur. Uşaq oyun oynarkən nələrisə kəşf edər, nitqi, ünsiyyəti formalaşar, diqqəti, yaddaşı, zəka səviyyəsi, hissləri artar, inkişaf edər". Bu sözləri SİA-ya açıqlamasında uşaq psixoloq Tahiba Quliyeva bildirib.*

Onun sözlərinə görə, uşaqlar oyun oynarkən özlərini ifadə edərlər: "Bəzən biz psixoloqlar oyun vasitəsilə uşağı və onun şüuraltını aşkarlayırıq. Adi vaxt ifadə edə bilmədiklərini oyun ilə ifadə edər. Hər bir yaş dövrünün öz oyuncaq seçimi var. Körpə uşaqların diqqətini səsli və rəngarəng oyuncaqlar ilə toplaya bilərsiniz. Körpə uşaqlarda oyuncaqlar uşağın həm də kiçik motorikasını dəstəkləməlidir. Bundan başqa uşaqların seçimi bəzən bahalı maşın, gəlincik, ev, heyvan fiqurları ola bilər, bəzən isə evdə sizin işlətdiyiniz tava, qazan-qapaq, qaşıq və ya sizin geyimləriniz onun diqqətini çəkər. Bunlar hamısı onun inkişafına dəstəkdir. Lakin burada bir məqama diqqət çəkmək istərdim. İstər öz oyuncaqları ilə, istərsə də evdəki əşyalarla oynayarkən uşağın oyuncaqla necə oynadığına diqqət etmək lazımdır. Məsələn, uşaq saatlarla eyni oyuncaqla oynayırsa, maraq dairəsi məhduddursa, fırlanan cisimlərə meyil edirsə və ya oy-



nadığı oyuncaqları, əşyaları( qazan qapağı, maşın təkəri və s.) fırladırsa, hər bir şeyi sıralayırsa, oyun oynayarkən heç kimlə oynamırsa və s. bu zaman gecikdirmədən mütləq bir psixoloqa müraciət etməlisiniz. Su və qum da uşağın inkişafı üçün önəmli yer tutur, onun inkişafını dəstəkləyir, özünü və ətrafı dərk etməsinə, sosial çevrə yaratmağına, ünsiyyətinin inkişafına, sakitləşməsinə səbəb olur. Oyuncaq seçərkən uşağın yaşı və inkişafı nəzərə alınmalıdır. Aldığınız oyuncaqlar çox yönlü olmalıdır ki, uşaq onu kəşf etdikcə daha çox şey öyrənə bilsin. Kəskin səsli, aqressiv görünüşü olan oyuncaqlar uşağınızda əsəbilik, aqressiya, vurma davranışı yaradacaq. Bunun üçün oyuncaq seçimi vacib məsələlərdən biridir".

**Banuçiçək Hüseynli**

# Bir gündə yol qəzalarında 4 nəfər ölüb

***Respublikanın daxili işlər orqanları tərəfindən ötən gün ərzində törədilmiş 59 cinayətin üstü "isti izlər"lə açılmışdır. Əvvəlki dövrlərdən bağlı qalmış 16 cinayətin açılması təmin olunub.***

DİN-dən SİA-ya verilən məlumata görə, axtarışda olduğuna görə ümumilikdə 81 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 64 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında 2 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 4 nəfər ölüb, 4 nəfər xəsarət alıb.



Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 22, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 4 fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 56 nəfər saxlanılıb.

# Stresdən çıxmağın yolları açıqlandı: çarə nədir?

*Son zamanlar stres problemi və onunla mübarizə yolları bütün yaş qrupları arasında aktualdır. Buna görə də insanlar tez-tez stresin sağlamlığa mümkün mənfi təsirindən, psixosomatik pozğunluqlardan narahat olur və fəal şəkildə psixoloji yardım axtarırlar. Bu barədə rusiyalı psixiatr Yelena Kuznetsova bildirib. O əlavə edib ki, ilk növbədə, fizioloji stresi ayırd etmək lazımdır.*



Mütəxəssis vurğulayır ki, patoloji stres zərərli, üstəlik, patologiyanın inkişafına səbəb olur, müxtəlif asılılıqların və depressiyaların artmasına gətirib çıxarır. Onun fikrincə, bundan yayınmaq üçün stresin təhlükəsini dərk etməyi və onunla mübarizə aparmağı öyrənmək lazımdır.

Psixiatr deyir ki, stresli vəziyyətlərdə insan bir neçə yolla reaksiya verə bilər və özünə kömək üsulları fərqli olar. Mütəxəssis hesab edir ki, ən səmərəli yol fəal idmandır və o, fizioloji stresin öhdəsindən gəlməyə kömək edir. Rusiyalı tədqiqatçı istənilən halda psixoloqların yardımından bəhrələnməyi tövsiyə edir.


**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**